> Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər!
>
> *(Qurani-Kərim, əl-Bəqərə, 269)*

## Prezident "Dini mədəniyyətin inkişafı" fonduna pul ayırdı

Prezident İlham Əliyev Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama uyğun olaraq Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan "Dini mədəniyyətin inkişafı" fonduna 3 milyon manat ayrılıb.


www.scwra.gov.az

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

# Cəmiyyət və Din

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 08 (289) / AVQUST 2015-ci il




Azərbaycan dövləti öz tarixi keçmişinə, tarixi abidələrinə çox böyük diqqətlə yanaşır. Bizim bütün tarixi məscidlərimiz əsaslı şəkildə təmir olunub, bərpa edilib. Bizim qədim və müasir dini abidələrimiz bütün müsəlman aləminin sərvətidir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı məscidi Azərbaycanda yerləşir, 743-cü ildə tikilmişdir. O, bir memarlıq əsəridir. Dünyanın ən yeni məscidlərindən biri olan Heydər məscidi 2014-cü ildə Bakıda tikilmişdir. Bu məscid də gözəl memarlığa malik olan bir sənət əsəridir. Yəni, bu, bir daha ölkəmizin öz keçmişinə, xalqımızın öz dininə olan hörmətini əks etdirir.

Biz bundan sonra da çalışacağıq ki, müsəlman ölkələri arasındakı həmrəyliyi gücləndirək.

***Prezident İlham Əliyev***
***Müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirləri ilə görüşdəki nitqindən***

*Bakı, 22 iyun 2015*



Bəşəri dəyərlər naminə

səh. 3-5

İlham Zəkiyevə Brayl əlifbası ilə çap edilmiş Qurani-Kərim təqdim olunub

səh. 7

Səyavuş Heydərov: Mənəviyyatımız olan İslam dininin siyasiləşdirilməsi yolverilməzdir

səh. 10

Asiyada TƏHLÜKƏLİ 10 dini cərəyan

səh. 14

İSLAMIN AĞILA VERDİYİ DƏYƏR



səh. 13

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində bu ilin 6 ayının yekunlarına həsr olunan kollegiya iclası keçirilib

**İyulun 31-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində cari ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.**



İclasda Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı hesabat məruzəsi ilə çıxış edib. Bildirilib ki, Komitə cari ilin birinci yarısında vəzifəsindən irəli gələn funksiyaların həyata keçirilməsi istiqamətində fəaliyyətini davam etdirib, mövcud qanunvericiliyi, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrini rəhbər tutub, milli və dövlətçilik maraqlarının qorunmasını prioritet hesab edib. Hesabat dövrü fəaliyyətimizdə effektivliyin və operativliyin artırılması, eləcə də dövlət-din münasibətlərinin daha səmərəli təşkilinin təmin edilməsi məqsədilə Komitədə aparılmış struktur dəyişikliyi ilə yadda qalıb. Belə ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, Dövlət Komitəsinin Əsasnaməsinə edilmiş dəyişikliyə uyğun olaraq, əvvəlki 9 bölgə şöbəsinin əsasında müvafiq dislokasiyalar üzrə yeni 15 bölgə şöbəsi, Komitənin mərkəzi aparatında 3 şöbə və 3 sektor yaradılıb. Eyni zamanda, Komitənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində zəruri işlər görülüb.

Qeyd edilib ki, hesabat dövründə Komitənin fəaliyyət sahələrinə uyğun olaraq çoxsaylı tədbirlər həyata keçirilib. Dini durumun öyrənilməsi, dini icmaların fəaliyyətinə nəzarətin gücləndirilməsi, radikal cərəyan və təriqətlərin fəaliyyətinin aşkarlanması, dini obyektlərin tikintisi barədə məlumatların yenilənməsi, dini təhsil müəssisələrinin fəaliyyətinin araşdırılması və əlamətdar dini mərasimlərlə bağlı tədbirlər görülüb. Din adı ilə milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasına qarşı mümkün vasitələrlə mübarizə davam etdirilib, bu istiqamətdə qabaqlayıcı, profilaktik və inzibati tədbirlər həyata keçirilib.

Vurğulanıb ki, Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Nazirlər Kabinetinin müvafiq tapşırıq və tövsiyələrini nəzərə almaqla işini günün tələblərinə uyğun qurub, aidiyyəti dövlət qurumları ilə əlaqəli fəaliyyət göstərib. Həyata keçirilmiş birgə tədbirlər nəticəsində ölkədə dini radikalizmlə mübarizə, qeyri-qanuni ibadət yerlərinin fəaliyyətinin dayandırılması, dini nifrəti və ayrı-seçkiliyi ehtiva edən, eləcə də ölkəyə qeyri-qanuni idxal edilmiş dini təyinatlı ədəbiyyat və məmulatların satışının qarşısının alınması istiqamətində ciddi uğurlar əldə edilib. Ölkəyə qeyri-qanuni idxal olunmuş və ya respublika ərazisində istehsal edilən, dini nifrəti və ayrı-seçkiliyi ehtiva edən ədəbiyyat və məmulatların satışının qarşısının alınması məqsədilə də mütəmadi tədbirlər həyata keçirilib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın gərgin səyləri və zəhməti nəticəsində yüksək səviyyədə keçirilmiş birinci Avropa Oyunlarında iştirak edən idmançıların və digər qonaqların dini tələbatının ödənilməsi məqsədilə Olimpiya Kəndinə müxtəlif dini konfessiyalardan din xadimlərinin cəlb edilməsi istiqamətində işlər uğurla həyata keçirilib. Həmin din xadimləri Dövlət Komitəsindən olan nümayəndələrin rəhbərliyi altında Olimpiya Kəndində olub, iştirakçıların dini ayinlərinin həyata keçirilməsi ilə bağlı tələbatları yüksək səviyyədə ödənilib.

Cari dövrdə "Azərbaycanda dini icmalara maliyyə yardımı göstərilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə ayrılmış 2,5 milyon manat vəsaitdən müsəlman və qeyri-müsəlman dini qurumlarına ayırmalar həyata keçirilib. Həmin vəsaitin bölgüsü zamanı Komitədə yenidən dövlət qeydiyyatından keçmiş qeyri-müsəlman təmayüllü dini qurumlar və onların təəssübkeşlərinin sayı nəzərə alınıb. Ümumilikdə qeyri-islam dini qurumlarına 400 min manat vəsait ayrılıb. Həmçinin ayrılmış maliyyə vəsaitinin bölüşdürülməsi məqsədilə dini icmalardan milli mənəvi dəyərlərimizin təbliğinə, dini maarifləndirmə işinin aparılmasına, gənclərin zərərli vərdişlərdən uzaqlaşdırılmasına xidmət edən layihələrin qəbuluna başlanılıb və layihələrlə bağlı müvafiq ekspert rəyi verilməsi üçün Komitədə qiymətləndirmə komissiyası yaradılıb. Hesabat dövründə qiymətləndirmə komissiyası bir qrup dini icmanın layihəsinə baxıb və müsbət rəy verdikdən sonra Komitə həmin layihələri maliyyələşdirib. Hazırda bu istiqamətdə işlər davam edir.

Komitə cari ilin birinci yarısında milli maraqlarımıza zidd, qeyri-ənənəvi dini cərəyanların yayılmasının qarşısını almaq üçün qabaqlayıcı amil kimi maarifləndirmə tədbirlərinə üstünlük verib. Hesabat dövründə bu məqsədlə bir sıra tədbirlər həyata keçirilib. Belə tədbirlərdən biri kimi "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda 12 regional konfrans keçirilib. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Dövlət Komitəsinin müvafiq şöbələri sıx əməkdaşlıq edir, birgə tədbirlər təşkil olunur.

"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramında ölkə gənclərinin milli-mənəvi, ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması ilə bağlı nəzərdə tutulmuş vəzifələrin icrasını təmin etmək məqsədilə Komitə müvafiq dövlət qurumları ilə birgə silsilə xarakterli maarifləndirici tədbirlər keçirib.

Dini qurumların dövlət qeydiyyatına alınması prosesi cari ilin altı ayında da davam etdirilib, onların ümumi sayı 632-yə çatıb. Ötən dövrdə 672 adda dini məzmunlu ədəbiyyata baxılıb, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 147 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınıb.

Cari ilin birinci yarısında ölkədə dini durumun təhlili də həyata keçirilib, zərərli dini cərəyanların təbliğat üsul və metodlarının analizi, bu cərəyanların təbliğində geosiyasi amillərin rolu, zərərli cərəyanların ölkədə yayılma coğrafiyası və hədəfə aldığı sosial bazanın xarakterik cəhətləri, eləcə də bütün bunlardan yarana biləcək mümkün təhdidlər araşdırılıb, həmçinin ayrı-ayrılıqda fərqli din və məzhəblərə mənsub cərəyan ardıcıllarının etiqadi baxışlarının davranışlarındakı təzahür formaları təhlil edilib. Regionlarda vətəndaşların qəbul günləri qrafikinə uyğun olaraq respublikanın 6 bölgəsində vətəndaşlar Komitə sədri tərəfindən qəbul edilib. Qəbul zamanı qaldırılan məsələlərin bəziləri yerində həll edilib, bəziləri isə nəzarətə götürülərək həlli istiqamətində müvafiq iş aparılıb.

Bildirilib ki, hesabat dövründə xarici əlaqələr sahəsində işlər davam etdirilib, Komitə tərəfindən ölkəmizin tolerantlıq, dinc birgəyaşayış təcrübəsinin yayılması, müttəfiq ölkələrlə radikal dini qruplara və təriqətlərə qarşı birgə mübarizə aparılması, Ermənistanın təcavüzkarlıq siyasətinin pislənilməsi məqsədilə təbliğat xarakterli tədbirlər planlı şəkildə həyata keçirilib.

Diqqətə çatdırılıb ki, görülən bütün bu işlərlə yanaşı, dini durumdakı bəzi nöqsanların tam şəkildə aradan qaldırılması hələ də mümkün olmayıb. Belə ki, dini icmalarla işin günün tələblərinə uyğun qurulması, onların aktiv fəaliyyətinin təmin edilməsi, bütün ibadət evlərində sağlam dini mühitin formalaşdırılması qarşımızda duran əsas vəzifələrdir. Bütün hallarda kənar təsirlərə qarşı mübarizə daha da gücləndirilməlidir. Dindən bir vasitə kimi yararlanmağa çalışan xarici dairələrin ideoloji həmlələri qarşısında hər birimiz sayıqlığımızı daha da artırmalıyıq.

Daha sonra Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev çıxış edərək deyib ki, Naxçıvanda din və vicdan azadlığı tam şəkildə təmin edilib, dindarlar üçün hər cür şərait yaradılıb.

Bildirilib ki, bu gün Naxçıvan Muxtar Respublikasında da milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xüsusi diqqət yetirilir, dini bayramlarımız yüksək səviyyədə qeyd edilir, ziyarətgahlarımız, məscidlərimiz təmir və ya bərpa olunur. Muxtar respublika ərazisində 209 məscid, 16 dini icma fəaliyyət göstərir. Qeydiyyatdan keçmiş 638 din xadiminə hər biri iki dəstdən ibarət yay və qış geyim forması pulsuz olaraq verilib, onların dini sahədə biliklərinin artırılması məqsədilə Naxçıvan şəhərində və rayonlarda təkmilləşmə kursları təşkil olunub.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasında dini bayramlar, ayinlər və yas mərasimlərinin milli-mənəvi dəyərlərimizə və ənənələrimizə uyğun şəkildə keçirilməsi məqsədilə bir sıra tədbirlər görülüb. Məscidlərdə İslam dininin əsaslarına uyğun olaraq ibadətlər təşkil edilir. Tolerantlıq prinsipləri ciddi şəkildə qorunur. Müxtəlif məzhəblərə mənsub insanların məscidlərdə birgə ibadət etmələri təmin olunub, radikal və dini nifrət yayan cərəyanlara qarşı müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə bölgələrdə maarifləndirmə işləri aparılıb.

Dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi məqsədilə hər ay Naxçıvan şəhərindəki "Heydər" məscidində icma rəhbərləri ilə iclaslar təşkil olunur.

Vurğulanıb ki, 2014-cü il avqustun 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Muxtar Respublikada dövlət orqanlarının dini qurumlarla qarşılıqlı fəaliyyətinin təşkil edilməsi, multikulturalizm və dövlət-din münasibətlərinin daha dolğun tənzimlənməsi məqsədilə multikulturalizm və dini məsələlər üzrə komissiyalar yaradılıb. Muxtar Respublikada İslam dini üzrə ixtisaslı kadrların hazırlanması üçün 2015-ci ildə "Naxçıvan" Universitetində dinşünaslıq ixtisası açılıb.

Dövlət Komitəsinin dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov çıxış edərək Ramazan ayı ilə bağlı təşkil edilən tədbirlərdən, Komitənin keçirdiyi monitorinqlərdən danışıb.

Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev çıxış edərək bildirib ki, Azərbaycanda dövlət-din münasibətləri sağlam təməl üzərində formalaşıb və inkişaf edir. Milli-mənəvi dəyərlərin inkişafına dövlət tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir.

Dövlət müşaviri deyib ki, əsas məsələ məscidlərdə, dini müəssisələrdə ümumi maarifçilik prinsiplərinin qoyulmasıdır. Ümumi maarifçilik bu gün bizim dindarlarımıza da, məscid əhlimizə də lazımdır. Məscidlərdə təkcə dini kitab yox, dünyəvi kitablar da olmalıdır. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi vasitəsilə bu istiqamətdə iş aparmaq, məscidləri mütəmadi olaraq dünyəvi kitablarla zənginləşdirmək lazımdır. Məscidlərdə böyük klassiklərimizin əsərləri olmalıdır.

Din xadimlərinin, xüsusilə gənc din xadimlərinin qruplar şəklində xaricə səfərlərə göndərilməsinin önəmini qeyd edən Kamal Abdullayev bildirib ki, bu cür elmi və dini səfərlərin təşkil edilməsi onların dünya dinləri haqqında təsəvvürlərini, biliklərini artırar. Maarifçilik nöqteyi-nəzərindən, intellektual səviyyənin yüksəldilməsi baxımından bu məsələ əhəmiyyətlidir.

Dövlət müşaviri radikalizmlə, zərərli dini ədəbiyyatla ciddi mübarizə aparıldığını da diqqətə çatdırıb. Əlavə edib ki, bu mübarizədə ən səmərəli vasitə maarifləndirmə işidir.

Multikulturalizmin Azərbaycanın dövlət siyasətində prioritet istiqamət olduğunu vurğulayan Kamal Abdullayev "Azərbaycan multikulturalizmi" fənninin 7 xarici ölkə universitetlərində tədrisi barədə məlumat verib, bu universitetlərin sırasına növbəti semestrdən bir sıra Avropa universitetlərinin də daxil olacağını diqqətə çatdırıb.

Dövlət müşaviri ölkəmizdə bütün etnik qruplar və müxtəlif dinlərə mənsub olan insanların sülh içərisində yaşadıqlarını deyib. O, Azərbaycanda məscidlərlə yanaşı, çox sayda kilsə və sinaqoqun normal fəaliyyət göstərdiyini vurğulayıb. Əlavə edib ki, Azərbaycanda dini və milli zəmində ayrı-seçkiliyin izi belə yoxdur.

İclasda cari ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrlə bağlı müzakirələr aparılıb, təkliflər səsləndirilib.

Dövlət Komitəsinin hesabat dövründə gördüyü işlər qənaətbəxş hesab edilib.



# Başəri dəyərlər namina

## Heydər Əliyev Fondunun həyata keçirdiyi qlobal təşəbbüslər Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm ünvanı kimi tanınmasına mühüm töhfə verib

Xalqların tarixən formalaşmış düşüncə sistemini, milli-mənəvi dəyərlərini müəyyən hallarda ciddi təhdidlərə, ideya avtoritarizminə məruz qoyan qloballaşma prosesi suveren dövlətlər arasındakı sədləri də dağıdır, bəzən cəmiyyətdaxili sosial münasibətləri fərqli dünyagörüşü çərçivəsinə salaraq məhdudlaşdırır. Mədəniyyət və ənənələrin öncüllüyünü nisbətən arxa plana keçirən bu proses eyni zamanda milli identiklikdən uzaqlaşmanı gücləndirir, coğrafi və iqtisadi vəziyyətindən, siyasi sistemindən, habelə mentalitetindən asılı olmayaraq cəmiyyətləri zorən qərbləşdirməyə sövq edir.

XXI yüzillikdə dünyada əks proses olaraq milli özünəməxsusluğun, mental-əxlaqi xüsusiyyətlərin qorunub saxlanılması, kütləvi mədəniyyət stereotiplərindən qaçma meyillərinin güclənməsi də təsadüfi deyildir. Başqa sözlə, müasir dövrdə sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi, dini dəyərlərinin qorunması zərurətini də aktual məsələlərdən birinə çevirmişdir. Lakin ilk baxışdan təbii və mütərəqqi görünən bu meyillər bəzi hallarda sivil bəşər cəmiyyətinin minilliklər boyu əxz etdiyi vacib fenomen dəyəri - tolerantlığı sarsıdır, onun etnik, irqi, dini və siyasi dözümsüzlüklə əvəzlənməsinə rəvac verir. Milli özünəməxsusluğu qoruma instinkti, yaxud da bəhanəsi altında son nəticədə başqa mədəniyyətlərə, dinlərə, hətta millətlərə münasibətdə dözümsüzlük, ksenofobiya halları artır.

Bu neqativ tendensiya müasir dünyanın sivil inkişaf rəhninin məhz tolerantlıq və multikulturalizm kimi əsrlər boyu təşəkkül və tərəqqi yolu keçərək cilalanan, ümdə birgəyaşayış prinsiplərinə çevrilən ali dəyərlərlə bağlılığını daha da zəruriləşdirir. Tolerantlıq bu gün fərqliliyi zənginliyə, müzakirələri inkişafa, iğtişaşları sülhə, fərdiyyətçiliyi harmoniyaya aparan əsas dəyərdir. Hər bir şəxsin fərqli ifadə tərzinə hörmətlə yanaşmaq, onun fikirlərinə dözümlü münasibət bəsləmək tolerantlığın fəlsəfəsini təşkil edir. Tolerantlığın tam bərqərar olduğu cəmiyyətlərdə həm də insan azadlığının bütün kriteriyaları təmin edilir, burada insanlar nəyinsə və ya kiminsə xatirinə öz fikir və ideyalarından geri çəkilmir, ətrafdakı şəxslərin mənəvi-dini-sosial müxtəlifliyinə dözümlü yanaşmaq mədəniyyəti nümayiş etdirir.

Məhz dözümlü yanaşma sayəsində də cəmiyyətdə sivil birgəyaşayış normaları, habelə fikir və əqidə müxtəlifliyi, siyasi plüralizm təmin olunur, demokratik ideyaların praktik şəkildə gerçəkləşməsinə imkan yaranır. Sivilizasiyaların toqquşması nəzəriyyəsinin banisi S.Hantinqton hesab edir ki, tolerantlıq bir dəyər normativi olaraq kompromisin legitimliyini, həmçinin sosial və siyasi qruplar arasında mövcud fərqlərə və ziddiyyətlərə dözümlülüyü özündə ehtiva edir.

Tolerantlıq düşüncəsi hər bir xalqın inkişaf yolundan, dünyagörüşündən, habelə yerləşdiyi coğrafi məkandan asılı olaraq inkişaf edir. Bu mənada, Azərbaycanda tolerantlıq düşüncəsinin tarixi xalqımızın və bu coğrafi məkanda dövlətlərin formalaşma mərhələləri ilə bilavasitə bağlıdır. Hələ şəhər-dövlətlərin yarandığı ilkin dövrlərdən bu coğrafi məkanda müxtəlif etnoslar birgə yaşamış, uzun sürən mənasız qarşıdurma və müharibələrdən, toqquşmalardan sonra dinc və qarşılıqlı anlaşma şəraitində yaşamağın zəruriliyini dərk etmişlər. Tədricən müxtəlif dinə, məzhəbə, dilə, mədəniyyətə malik insanların ümumi Vətəninə çevrilən Azərbaycanda tolerantlıq düşüncəsi getdikcə daha da möhkəmlənmişdir.

Ötən əsrin 90-cı illərində Sovet İttifaqının dağılması və Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonrakı ilk illərində respublikada obyektiv və subyektiv amillərlə əlaqədar etnik-milli tolerantlıq sahəsində müəyyən problemlərin baş qaldırdığını açıq etiraf etməliyik. Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrdə vəziyyət sabitləşmiş, vicdan azadlığı yüksək səviyyədə təmin olunmuş, tolerantlığın gücləndirilməsi istiqamətində əməli tədbirlər həyata keçirilmişdir.

"Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda da, Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda islam dini ilə yanaşı, xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır" - deyən Ümummilli Lider ölkədə mütərəqqi islam dəyərlərinin inkişafına xüsusi diqqət yetirməklə yanaşı, başqa dinlərin inkişafına da tolerant mühitin yaradılmasını təmin etmiş, dini konfessiyalar arasında qarşılıqlı hörmətə söykənən münasibətlərin formalaşmasına çalışmışdır.

1995-ci ildə Azərbaycanda ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyamızda ölkə vətəndaşlarının vicdan azadlığı birmənalı təsbit edilmişdir. Konstitusiyanın qəbulundan sonra ölkədə dini-mənəvi münasibətləri tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi müxtəlif dini icmaların qanunla müəyyənləşmiş qaydada fəaliyyətinə münbit imkanlar açmış, bu sahədə dövlət tənzimlənməsinin həyata keçirilməsi məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Xalqlararası və mədəniyyətlərarası dialoqu, tolerantlıq ənənələrini müasir qloballaşma dövründə daha da inkişaf etdirmək, ona dəstək vermək, bütün insanların gələcəyi naminə dinlərin dialoquna nail olmaq bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu siyasəti son 12 ildə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin milli mədəniyyətin, dini-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması və inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasəti çağdaş dövrün obyektiv reallıqları ilə şərtlənir.

Son illər ölkə başçısının diqqət və qayğısı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti daha da təkmilləşdirilmiş, habelə milli təhlükəsizlik maraqları önə çəkilərək dövlət qeydiyyatından keçmiş dini icmaların dövlət büdcəsinin vəsaitləri hesabına maliyyələşdirilməsinə başlanılmışdır.

Ümumilikdə, dövlət başçısı İlham Əliyev tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsinə, xüsusən də dini ziyarətgahların əsaslı təmiri və yenidən qurulmasına xüsusi diqqət ayırmışdır. Azərbaycan Prezidentinin islam mədəniyyəti nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş və inanc yerlərinin təmiri, bərpası ilə bağlı xüsusi sərəncamlar imzalaması və bu işi şəxsi nəzarətinə götürməsi deyilənləri bir daha təsdiqləyir. Son illər Bibiheybət, Təzəpir, Əjdərbəy və digər məscidlər əsaslı təmir olunmuş, Cənubi Qafqazda ən böyük məscid olan Heydər məscidi inşa edilərək istifadəyə verilmişdir.

Azərbaycanın Şərq və Qərb mədəniyyətləri arasında tutduğu mövqe, bu iki dünyanın zəngin mədəni irsinə sahibliyi mədəniyyət diplomatiyasında ölkəmizin önəmini son dərəcə artırır. Azərbaycanın birinci xanımı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da son 11 ildə digər sahələrdəki nailiyyətləri ilə yanaşı, bütün dünyada tolerantlıq və multikulturalizmin də mükəmməl örnəyini yaratmaqdadır.

Yaxşı məlumdur ki, Heydər Əliyev Fondunun başlıca məramlarından biri Ulu Öndərin mənəvi irsinin, ideyalarının öyrənilməsi və təbliğidir. Bu məqsəd həm də Heydər Əliyev Fondunun mədəniyyət diplomatiyası sahəsindəki novatorluğu kimi qiymətləndirilə bilər: fond xalqın mədəni və mənəvi dəyərlərini özündə təcəssüm etdirən bir şəxsiyyəti təbliğ etməklə, əslində, bütünlükdə Azərbaycan xalqının dəyərlərini təbliğ edir. Heydər Əliyev elə bir lider olub ki, Azərbaycan xalqının bütün mədəni dəyərlərini öz şəxsiyyətində və fəaliyyətində əks etdirib. Heydər Əliyev şəxsiyyətini təbliğ etmək, eyni dərəcədə, Azərbaycan mədəniyyətini təbliğ etmək, onu dünyada tanıtdırmaq və beləliklə, xalqın öz liderinə olan rəğbət və ehtiramından ölkənin dünya birliyinə inteqrasiyasında və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında bəhrələnmək deməkdir.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyev Fondu Azərbaycanda mədəniyyət diplomatiyasını mütəşəkkil, sistemli, təşkilatlanmış, müasir dövrün çağırışlarına uyğun, ən əsası, qlobal miqyasda həyata keçirən ilk ictimai təşkilatdır. Qısa müddət ərzində mədəniyyət diplomatiyasına və mədəniyyətlərarası dialoqa töhfələr verən fond Qafqazda və keçmiş sovet məkanında analoqu olmayan multikultural layihələri ilə dünyada tanınmışdır. Heydər Əliyev Fondu mədəniyyət diplomatiyasını Azərbaycan mədəniyyətinin geniş təbliği, ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına yardım göstərilməsi, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xarici ölkələrin təhsil müəssisələri, QHT-lər, digər fond və təşkilatlarla əməkdaşlığın inkişafı, beynəlxalq konfranslar və seminarların təşkili, elmi və təhsil mübadilələrinin reallaşdırılması və digər bu kimi səmərəli yollarla həyata keçirir.

Ölkədə tolerantlıq düşüncəsinin inkişafında da fondun xidmətlərini xüsusi vurğulamaq lazımdır. Fondun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın vətənpərvər fəaliyyəti nəticəsində Azərbaycanın mənəvi inciləri bir-birinin ardınca dünya qeyri-maddi mədəni irs siyahısına salınmış, ölkəmiz, sözün əsl mənasında, fərqli sivilizasiyaların və mədəniyyətlərin dialoqu və ortaq məxrəc axtardığı məkana çevrilmişdir.

Ötən 11 ildə fondun bilavasitə təşəbbüsü və təşkilatçılığı ilə Beynəlxalq Millətlər Təşkilatının, İslam Konfransı Təşkilatının və digər nüfuzlu qurumların savadsızlığın aradan qaldırılmasına, gender bərabərliyinə, milli-mədəni müxtəlifliyin, habelə uşaq hüquqlarının qorunmasına, sivilizasiyalararası dialoqun genişləndirilməsinə, etnik, dini, irqi ayrı-seçkiliyin aradan qaldırılmasına həsr olunmuş tədbirlərin məhz Bakıda keçirilməsi buna əyani sübutdur.

Azərbaycanın tarixi ənənələrini, tarixi

⇨ 4

# Başəri dəyərlər naminə

*Heydər Əliyev Fondunun həyata keçirdiyi qlobal təşəbbüslər Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm ünvanı kimi tanınmasına mühüm töhfə verib*

3 ⇦ İpək yolunun regiondakı rolunu nəzərə alan Latın Mədəniyyəti Akademiyasının hələ 2006-cı il aprelin 19-da Bakıda keçirilmiş XIII konfransı respublikamızın sivilizasiyalararası dialoq mərkəzinə çevrildiyini nümayiş etdirmişdir. Latın mənşəli görkəmli mədəniyyət və ədəbiyyat xadimlərinin iştirakı ilə Heydər Əliyev Fondunda keçirilən konfransda çıxış edən Mehriban xanım Əliyeva demişdir: "Bu gün biz sivilizasiyalararası dialoqun keçmişindən söhbət açaraq xüsusi vurğulamalıyıq ki, qədim və çox zəngin yunan-Roma sivilizasiyasının ilk varisi məhz Şərq olubdur. Həqiqətən də, əsrlər boyu Böyük İpək Yolu üstündə yerləşən ölkəmiz çox yüksək tolerantlığa malik və müxtəlif mədəniyyətləri birləşdirən bir məkan kimi tanınır. Bu, bizim qürur duyduğumuz uğurumuz, keçmişimizdir və inanıram ki, gələcəkdə də bu sahədə Azərbaycan öz müsbət rolunu oynayacaqdır".

Bu gün Azərbaycan təkcə Şərqdən Qərbə və Qərbdən Şərqə gedən yolların baş keçidi deyil, habelə siyasi-iqtisadi maraqların, dinlərin, mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu məkan, qarşılıqlı tamamlanma və vəhdət rəmzidir. Hələ 2008-ci ildə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü, UNESCO-nun və ISESCO-nun dəstəyi ilə Bakıda keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq Bakı Forumu da sivilizasiyalararası dialoq, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, ümumbəşəri konsolidasiya prosesində qadınların rolunun araşdırılması, bu yöndə konkret fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından vacib əhəmiyyət kəsb etmişdir.

Ümumiyyətlə, son illər sivilizasiyalararası dialoq mövzusu ilə bağlı beynəlxalq məkanda aparılan fəal diskussiyalar, müxtəlif ölkələrdə keçirilən beynəlxalq konfranslar, simpoziumlar XXI əsrdə sivilizasiyalararası dialoq ideyasının nə qədər mühüm aktuallıq kəsb etməsindən xəbər verir. Bu məsələ BMT, UNESCO, digər beynəlxalq təşkilatlar və bir çox dövlət başçıları tərəfindən də dəfələrlə gündəmə gətirilmiş, qlobal problemlərin bütün dünya xalqlarının birgə səyləri ilə həll edilməsi zərurəti vurğulanmış, sülh və əmin-amanlıq, mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsi üçün dialoqun qaçılmaz olduğu göstərilmişdir. Lakin ən önəmli məsələ "sivilizasiyalararası" dedikdə, hansı sivilizasiyaların nəzərdə tutulması məsələsidir. Bir çox hallarda söhbət Şərq və Qərb, digər hallarda islam və xristian sivilizasiyalarından gedir. Bu gün qarşıda dayanan ən mühüm məsələ isə bu iki sivilizasiya arasında dialoq mühiti yaratmaq, onlara aid ən mütərəqqi dəyərlərin qarşılıqlı mübadiləsini təmin etməkdən ibarətdir.

Son vaxtlaradək Azərbaycanın coğrafi mövqeyi, qədim İpək yolunun bərpasında oynaya biləcək strateji rol, beynəlxalq neftqaz kəmərlərinin və dəmir yollarının Azərbaycandan keçməsi və s. bu kimi amillərə istinadla belə bir fikir səslənirdi ki, ölkəmiz Şərq ilə Qərb arasında körpüdür.



Lakin Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, indi Azərbaycanın iqtisadiyyatı və elmi-mədəni potensialı elə bir səviyyəyə çatmışdır ki, biz, sadəcə olaraq, iki sivilizasiya arasında körpü rolunu oynamırıq; biz bu sivilizasiyaların hər ikisinin daşıyıcısı olmaqla onların vəhdətini təcəssüm etdiririk. Son illərdə qazanılmış böyük iqtisadi nailiyyətlər Azərbaycana özünün beynəlxalq mövqeyini möhkəmləndirmək, Şərq ilə Qərb arasında tutduğu əlverişli coğrafi vəziyyətdən daha optimal surətdə istifadə etmək imkanı vermişdir.

Azərbaycan Prezidentinin və ölkənin birinci xanımının məqsədyönlü fəaliyyəti əsasında respublikamız sivilizasiyalararası dialoq təşəbbüslərinin mərkəzinə çevrilmişdir. Məhz bu fəaliyyət sayəsində Bakı 2009-cu ildə "İslam mədəniyyətinin paytaxtı" elan olunmuşdur. Şərqlə Qərbi birləşdirən İpək yolunun bərpası işinin təməli Bakıda qoyulduğu kimi, şəhərimiz dünyanın hər iki qütbünün dəyərlərini əks etdirən incəsənət bayramları, beynəlxalq elmi konfranslar üçün də mədəni-mənəvi məbədə çevrilmişdir. "Bakı İslam mədəniyyətinin paytaxtı-2009" mədəniyyət ili çərçivəsində keçirilmiş silsilə tədbirlər Azərbaycanı bir daha bütün dünyada tanıtmış, islam ölkələrinin yaxından iştirak etdikləri bu tədbirlər ISESCO tərəfindən yüksək qiymətləndirilmişdir.

2008-ci ilin 10 iyununda Bakıda "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişlənməsi" mövzusunda keçirilən beynəlxalq forumdakı çıxışında Mehriban xanım Əliyeva bu sahədə qarşıda duran vəzifələrə toxunarkən demişdir: "Görəsən, sivilizasiyalara, xalqlara və ayrı-ayrı insanlara bir-birini eşitməyə, anlamağa nə mane olur və nə kömək ola bilər?" Əlamətdar haldır ki, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Şərqin və Qərbin sülh və şəfqət elçisi Mehriban xanım, sadəcə, sual etməklə kifayətlənmir; o özünün artıq beynəlxalq miqyas almış geniş və çoxcəhətli fəaliyyəti ilə bu suala həm də cavab verir, sivilizasiyalar arasında qarşılıqlı anlaşma yaradılması istiqamətində ciddi əməli addımlar atır. O, dünyanın 10-a yaxın ölkəsinin birinci xanımının və planetin 60-dan çox ölkəsindən gəlmiş lider qadınların iştirakı ilə "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" adlı beynəlxalq konfransın həm təşəbbüsçüsü, həm də təşkilatçısı olmuşdur. Dünyanın iki önəmli təşkilatı, UNESCO və ISESCO-nu da bu böyük tədbirə cəlb edərək dünyamızın gələcəyi üçün ən önəmli məsələ olan mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsinin vacibliyini və əldə edilə biləcək nailiyyətləri bir platforma kimi ortaya qoymuşdur. Qonaqlar Azərbaycanın türkmənşəli və müsəlman ölkəsi kimi mədəniyyətlər və sivilizasiyalararası dialoqla bağlı gördüyü mühüm işlərlə tanış olmaqla yanaşı, Bakının Qərblə müsəlman dünyası arasında önəmli bir qapı kimi oynaya biləcəyi böyük rolu xüsusi vurğulamışlar.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2010-cu il iyunun 29-30-da Bakıda keçirilmiş və Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu" forumu da bütün dünyada sivilizasiyalar arasında dialoqa öz dəyərli töhfələri ilə yadda qalmışdır.

Azərbaycanın birinci xanımı öz fəaliyyəti ilə həm də mədəniyyətlər və sivilizasiyalararası dialoqa necə nail olmağın yolunu göstərir. Məlumdur ki, maddi mədəniyyətin, elmin, texnologiyanın, iqtisadiyyatın, fiziki sağlamlığın, idmanın prioritetliyinə əsaslanan Qərb sivilizasiyası və mənəvi mədəniyyətin, əxlaqın, dini dəyərlərin prioritetliyinə əsaslanan Şərq sivilizasiyası ancaq bir-birini qarşılıqlı surətdə tamamladıqda onun kamil insanın formalaşmasındakı rolu haqqında söhbət açmaq olar.

Cəmiyyət həyatında elmlə yanaşı, əxlaq və din də həlledici rol oynayır. Ruhun sağlamlığı isə təkcə bilik üzərində qurula bilmir. Burada inam, etiqad da eyni dərəcədə önəmlidir. Bütün bu cəhətlər ilk növbədə təhsil strategiyasında öz əksini tapır. Son dövrlərdə Azərbaycanda məktəblərə dövlət qayğısının artması da bu baxımdan kifayət qədər qanunauyğun tendensiyadır. Siyasi və iqtisadi kursun prioritetliyini önə çəkən, ölkənin davamlı inkişafını təmin etmək üçün möhkəm iqtisadi baza yaradan Prezident İlham Əliyevin quruculuq fəaliyyəti ölkənin birinci xanımının mənəvi dəyərlərimizin qorunub saxlanması, inkişaf etdirilməsi və dünya ictimaiyyətinə çatdırılması sahəsində gördüyü böyük işlərlə tamamlanır ki, bütün bunlar da Azərbaycanın hərtərəfli və ahəngdar tərəqqisinə xidmət edir.

Heydər Əliyev Fondunun fəaliyyətində sivilizasiyalar arasında ən mühüm problemlərdən biri olan multikulturalizm məsələsi önəmli yerlərdən birini tutur. Son illərin ən funksional terminlərindən olan "multikulturalizm" anlayış baxımından, əslində, qədimlərə gedir. Bu ifadənin mahiyyətində cəmiyyəti daha çox ədalət, mərhəmət kimi ümumbəşəri ideyalara təşviq etmək məramı da var. Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır.

Dünyanın çoxmillətli dövlətlərindən olan Azərbaycan da hər bir azərbaycanlının vətənidir. Azərbaycan Respublikasında kompakt şəkildə müxtəlif etnosların nümayəndələri yaşayır və onların hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini, etnik özünüdərketmə və etnopsixologiyasını qoruyub saxlayan unikal xüsusiyyətlərin daşıyıcılarıdır. Ölkəmizdə müxtəlif dinlərə, millətlərə, etnik azlıqlara məxsus xalqlar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Dövlət onlara öz adət-ənənələrini, dillərini qoruyub saxlamaq üçün bütün şəraiti yaratmışdır. Etnik azlıqlara da tam bərabər mədəni hüquqlar və ölkənin mədəni irsindən istifadə hüququ verilmişdir.

Son illərdə Bakıda keçirilmiş Bakı beynəlxalq humanitar forumları müxtəlif ölkələrin dövlət siyasətində multikulturalizmin mövqe və imkanlarının bir daha təhlilinə, etnik və mədəni özünüdərk arasında azad seçimin təmin olunmasına, azadlıq, bərabərlik və dözümlülük kimi təməl dəyərlərin cəmiyyətdə bərqərar olmasına yönələn qlobalmiqyaslı tədbirlər olaraq, dünyanın ən yeni tarixinə əhəmiyyətli hadisə kimi daxil olmuşdur. Bütün bu nailiyyətlərin əldə olunmasında, bəşəriyyət üçün müstəsna əhəmiyyət kəsb edən bu cür təşəbbüslərin irəli sürülməsi və uğurla reallaşmasında, şübhəsiz ki, Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var.

Ölkəmizdə tolerantlıq və multikulturalizm ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsini uğurla həyata keçirir. Layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılmış, eyni zamanda "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik təhsil mərkəzi inşa edilmişdir. 2006-cı ildə isə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Binə qəsəbəsindəki Möhsün Səlim məscidi əsaslı təmir edilmiş, Gəncə şəhərindəki Həzrəti Zeynəb məscidi yenidən qurulmuş, Buzovna qəsəbəsindəki Cümə məscidində də yenidənqurma işləri uğurla başa çatdırılmışdır.

2008-ci ilin sentyabrında Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasında anlaşma memorandumu imzalanmışdır. Sənəddə müəyyənləşdirilmiş sahələr üzrə inkişaf, yenidənqurma layihələrinin gerçəkləşdirilməsi, sosial və dini təyinatlı obyektlərə yardımla yanaşı, Azərbaycanda məskunlaşan xalqların etnomədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulmuşdur. İlkin əməkdaşlıq çərçivəsində fond tərəfindən Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilmiş, eyni zamanda, məbədin fasadında keramik panno yerləşdirilmişdir. Fond bu kimi tədbirləri ardıcıl olaraq davam etdirməkdədir.

⇨ 5

# Bəşəri dəyərlər naminə

## Heydər Əliyev Fondunun həyata keçirdiyi qlobal təşəbbüslər Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm ünvanı kimi tanınmasına mühüm töhfə verib

4 ⇦ Ümumiyyətlə, tolerantlıq nümunəsi sayılan Azərbaycan Heydər Əliyev Fondunun xətti ilə Parisdə Versal Sarayının parkında abidələri bərpa edir, Strasburqda Müqəddəs Məryəm kafedral kilsəsinin yenidən qurulmasına yardım göstərir, Pakistanda zəlzələdən zərərçəkən qızlar məktəbini yenidən inşa edir, Hollandiya, Rusiya, Gürcüstan, Rumıniya, Misir və digər ölkələrdə təhsil ocaqlarını müasirləşdirir, Afrika ölkələrinin qeyri-maddi mədəni irsinin qorunmasına dəstək verir, Qəbələ Beynəlxalq Musiqi Festivalı kimi onlarca qlobal və mükəmməl mədəniyyət layihəsinə imza atır.

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi də həyata keçirdiyi çoxşaxəli fəaliyyətində mədəniyyətlərarası dialoq, tolerantlıq, multikulturalizm məsələlərinə xüsusi diqqət yetirir. Buna nümunə olaraq, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın dəstəyi ilə Moskvada "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu. Bakı forumu" kitabının çapdan çıxması məhz Azərbaycan reallıqlarını özündə ehtiva edən fakt kimi böyük diqqət və maraqla qarşılanmışdır. Fəaliyyət coğrafiyasını daim genişləndirən qurumun təmsilçiləri, eyni zamanda, Leyla xanımın rəhbəri olduğu Rusiya Azərbaycanlıları Gənclər Təşkilatında təmsil olunan azərbaycanlı gənclər klubları eyni missiyanı Moskva ilə yanaşı, Sankt-Peterburqda, Arxangelsk, Tver, İvanov, Yekaterinburq və digər regionlarda da uğurla yerinə yetirməkdədirlər.

2012-ci il noyabrın 8-də Leyla xanım Əliyevanın təşəbbüsü ilə Londonda keçirilən "Avropa multikulturalizminin perspektivləri: Dinlərarası dialoq və dini tolerantlığın Azərbaycan modeli" mövzusunda konfrans Azərbaycanın bütün dünyada sülhün, firavanlığın təmsil olunması yönündə həyata keçirdiyi siyasətə daha bir sanballı töhfə olmuşdur.

Heydər Əliyev Fondu sonrakı dövrlərdə də Azərbaycanın dünyada təbliğ edilməsi məqsədilə müxtəlif tədbirlər keçirib. Fondun "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" adlı layihəsi çərçivəsində Avropanın bir çox dövlətlərində sərgilər keçirilib. Sərgilərdə milli geyimlərimiz, qədim misgərlik nümunələrimiz, milli musiqi alətlərimiz, Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri, yaşı yüz illərlə ölçülən xalça və xalça məmulatlarının geniş çeşidi nümayiş etdirilib, Heydər Əliyev Fondunun müxtəlif nəşrləri təqdim olunub.

"Azərbaycan: ənənədən müasirliyə" mövzusunda keçirilən sərgilərdə isə arxeoloji nümunələr, qədim və orta əsrlərdə Azərbaycanda istifadə olunmuş pul sikkələri, zərgərlik məmulatları, mis qablar və dulusçuluq nümunələri, qədim qadın və kişi geyimləri, milli musiqi alətləri, tikmələr və xalça məmulatları nümayiş etdirilib.

Bütün bu tədbirlər, layihələr, təşəbbüslər, ümumilikdə isə həyata keçirilən məqsədyönlü siyasət nəticə etibarilə ölkəmizdəki ictimai-siyasi durumun daha da möhkəmlənməsini təmin edir. Bu amil bölgəmizdə, islam dünyasında milli, dini, məzhəb zəminində baş verən münaqişələr, hər gün onlarla insanın terror qurbanına çevrilməsi kimi acı reallıq fonunda daha mühüm əhəmiyyət kəsb edir. Şübhəsiz, respublikamızı da bu gərginlik məngənəsinə çəkməyə cəhd edən, bunun üçün sistemli fəaliyyət göstərən qlobal şəbəkələr var və onların bu "təşəbbüslər"ini mütəmadi hiss edir, görürük. Amma bütün bu cəhdlər nəticə etibarilə iflasa uğrayır, saxta "təbliğat", radikal qaragüruh özünə geniş elektorat tapa bilmir. Dövlətin həyata keçirdiyi preventiv tədbirlər, düzgün maarifçilik işi real nəticələr verir. Prezident İlham Əliyev ötən ay müqəddəs Ramazan ayı münasibətilə təşkil edilən iftar mərasimindəki çıxışında bu mövzuya xüsusi diqqət ayıraraq, ölkəmizdəki milli və dini zəmindəki durumu düzgün təhlil etmişdir: "Azərbaycanda hökm sürən ab-hava, dinlərarası, millətlərarası münasibətlər, multikulturalizm dəyərləri - bunlar bizim üçün həyat tərzidir. Ancaq əgər biz bəzi başqa ölkələrə nəzər yetirsək görərik ki, bu, heç də hər yerdə belə deyil... Dinlərarası münasibətlərdə böhran yaşanır. İslamafobiya, ksenofobiya, antisemitizm meyilləri güclənir. Multikulturalizm dəyərləri haqqında hətta yüksək vəzifə sahibləri tərəfindən çox təhlükəli ifadələr səslənir ki, multikulturalizm iflasa uğrayıb, multikulturalizm işləmir və onun gələcəyi yoxdur. Gəlsinlər, Azərbaycana baxsınlar. Azərbaycanda multikulturalizm yaşayır, möhkəmlənir. Budur normal həyat tərzi, budur normal siyasət... Azərbaycanın gələcək uğurlu inkişafı məhz bu istiqamətdə ola bilər. Biz heç vaxt imkan verə bilmərik ki, hansısa kənar bir qüvvə Azərbaycanda dini, yaxud da ki milli zəmində nifaq toxumlarını səpsin. Azərbaycan dövləti buna heç vaxt imkan verməyəcək və Azərbaycan reallıqları bunu əyani şəkildə göstərir".



Azərbaycanın dünyada tolerant və multikultural məkan kimi tanıdılmasında ölkəmizdə keçirilmiş qlobal musiqi, mədəniyyət və idman tədbirlərinin əhəmiyyətini xüsusi qeyd etmək lazım gəlir. Azərbaycanın yüksək təşəbbüskarlığı ilə təşkil edilən çoxsaylı mötəbər beynəlxalq tədbirlər Bakını artıq regionun təkcə diplomatik deyil, həm də multikulturalizm mərkəzinə çevirmişdir. Hələ 3 il əvvəl "Eurovision-2012" kimi musiqi yarışmasını yüksək təşkilatçılıqla keçirən Azərbaycan bu ilin iyun ayında daha bir mötəbər idman tədbirinə - "Bakı-2015" I Avropa Oyunlarına uğurla yekun vurmuş, bütün dünya Azərbaycanın necə tolerant bir ölkə olduğunun bir daha əyani şahidi olmuşdur.

Azərbaycan həmin günlərdə ümumən Avropanın ictimai fikrinin favoritinə çevrilməyi bacarmışdır. Sülh, əmin-amanlıq şəraitində keçən bu oyunlar respublikamızın 24 illik müstəqillik tarixində keçdiyi əzəmətli inkişaf yoluna parlaq işıq salmışdır. Beynəlxalq ictimaiyyət heyranlıq ovqatında Bakı şəhərinin bölgənin sabitlik və intibah paytaxtı olduğunun, respublikamızın qısa zamanda ciddi uğurlara imza atdığının əyani şahidinə çevrilmişdir. Azərbaycan xalqının yüksək qonaqpərvərliyə, qədim mədəniyyətə, ecazkar musiqiyə, zəngin incəsənətə malik polietnik məkan olduğu, bu multikultural cəmiyyətdə ən müxtəlif xalqların tolerantlıq şəraitində dinc yanaşı yaşadıqları bir daha təsdiqini tapmışdır. Prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva I Avropa Oyunlarına hazırlığı yüksək vətənpərvərliklə, xalqa və dövlətə sonsuz sevgi hissi ilə həyata keçirdilər. Yüksək komanda işinə, Vətən, torpaq, yurd sevgisinə görə Azərbaycanın birinci xanımı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ölkə başçısı tərəfindən "Heydər Əliyev" ordeni ilə təltif olunması da bu əzmkar fəaliyyətə verilən adekvat qiymət olmuşdur.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın nəcib əməllərinə görə layiq görüldüyü çoxsaylı beynəlxalq mükafatlar, fəxri adlar, təltiflər ümumən Azərbaycan qadınına verilən yüksək qiymətdir. Dünyanın əksər nüfuzlu mətbu orqanlarında fondun reallaşdırdığı layihələrlə bağlı tez-tez dərc olunan və böyük əks-səda doğuran materiallar Mehriban xanım Əliyevanın fəaliyyətinin beynəlxalq aləmdə nə qədər diqqətlə izləndiyini və böyük rəğbətlə qarşılandığını göstərir.

Bu qürurverici faktlar bütün xalqımızı, o cümlədən Yeni Azərbaycan Partiyasının üzvlərini sevindirir. Partiyamızın sədr müavini, həmçinin təşkilatımızın ən fəal və xalq etimadı qazanmış deputatı Mehriban xanım Əliyevanın fəaliyyəti həm də cəmiyyətdə YAP-ın nüfuzunun yüksəlməsinə geniş miqyasda töhfə verir. Ulu Öndərimizin siyasi əmanəti olan və bu gün möhtərəm Prezident İlham Əliyevin layiqli liderliyi ilə Qafqazın ən güclü siyasi təşkilatına çevrilmiş YAP-ın qarşıdakı parlament seçkilərində də növbəti dəfə siyasi zəfər qazanmasında, fikrimcə, həm də Mehriban xanım Əliyevanın ictimaiyyət arasında inam və etimad ünvanı kimi qəbul olunmasının böyük payı olacaq.

Bir mühüm məqamı da qeyd edim ki, tolerantlıq və multikulturalizm xalqımızın çoxəsrlik ənənələrinin tərənnümü olduğu kimi, müasir dövrümüzdə həm də siyasi fəaliyyət müstəvisində də geniş intişar tapıb. Bu, ölkə siyasətinin flaqman təşkilatı olan Yeni Azərbaycan Partiyasının fəaliyyətində daha aydın nəzərə çarpır. Belə ki, 1992-ci ilin noyabrında obyektiv tarixi zərurətdən yaranmış Yeni Azərbaycan Partiyası ilk gündən ümumazərbaycan partiyasına çevrilmiş, ölkəmizdə yaşayan bütün xalqları, etnik qrupları, fərqli dinlərin təmsilçilərini vahid maraqlar - "Azərbaycançılıq" ideyası ətrafında birləşdirmiş, tolerantlığı və multikulturalizmi daim təşviq etmişdir. Təsadüfi deyil ki, müxtəlif xalqların və dinlərin təmsilçiləri YAP-ın üzvləri kimi cəmiyyət həyatında özlərini fəal realizə etməklə yanaşı, yerli özünüidarəetmə orqanlarında, parlamentdə, yüksək dövlət vəzifələrində layiqincə təmsil olunurlar.

YAP-ın proqramında da ümumi vətənçilik, tolerantlıq və multikulturalizm prinsipi xüsusi yer tutur: "Yeni Azərbaycan Partiyası dilindən, dinindən, etnik və sosial mənşəyindən asılı olmayaraq, Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan, ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan bütün Azərbaycan vətəndaşlarını Azərbaycan xalqı, Azərbaycanı isə onların ümumi, bölünməz Vətəni, doğma yurdu hesab edir. Partiyamız Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin, milli əxlaqi mentalitetinin, dilinin, dininin qorunmasını hamı üçün ümumi Vətən hesab olunan və xalqımızın dövlətçilik hisslərini, dövlət rəmzini yaşadan vahid Azərbaycan dövləti ilə bağlayır".

Bu gün bəşəri miqyasda tolerant dəyərlərə münasibət həmçinin hər bir ölkənin demokratik və sivil məramlara, habelə xalqların birgəyaşayış normalarına münasibətinin bariz təcəssümünə çevrilmişdir. Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycan məhz bu dəyərlərə sadiqlik baxımından əksər ölkələr üçün örnəyə çevrilmiş, ümumən isə Cənubi Qafqazdan başlayıb Avrasiya arealınadək uzanan böyük bir məkanda sivilizasiyalararası dialoq mühitinin formalaşdırılmasının təşəbbüskarı olmuşdur. Ölkə rəhbərliyinin bu sahədə həyata keçirdiyi məqsədyönlü siyasətə əməli dəstək verən Heydər Əliyev Fondu da Azərbaycanın bütün dünyada tolerantlıq və multikulturalizm ünvanı kimi tanınması prosesində yaxından iştirak edir. Azərbaycanın mükəmməl nümunəsində mütərəqqi dünya artıq onu da yaxşı dərk etməyə başlayır ki, ancaq silahların "danışdığı" - güclünün daim haqlı hesab edildiyi dövr tədricən başqalarının ideya və dəyərlərinə hörmətlə yanaşma, qarşılıqlı anlaşma və dialoqla əvəzlənməlidir.

Əslində, bu, bəşəriyyətin alternativi olmayan tərəqqi yoludur.

***Mübariz QURBANLI,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının icra katibinin müavini***

***"Azərbaycan" qəzeti***
*№ 180 (7034), 21 avqust 2015-ci il*

# Mübariz Qurbanlı: İslami dəyərlər milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir və biz bunu qorumalıyıq

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının Yeni Azərbaycan Partiyasının (YAP) rəsmi saytına (www.yap.org.az) müsabihəsi*



**- Mübariz müəllim, hazırda Azərbaycanda dövlət-din münasibətlərini necə dəyərləndirirsiniz? Bu sahədə vəziyyətlə bağlı fikirlərinizi bilmək istərdik.**

- Bildiyiniz kimi, Azərbaycan dinamik inkişaf yolundadır. Ölkəmiz sosial-iqtisadi, siyasi sahədə ciddi uğurlara imza atıb. Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz nailiyyətlər həm Azərbaycan cəmiyyətində, həm də beynəlxalq müstəvidə qəbul olunur və təqdir edilir. Azərbaycan müsəlman ölkəsi olaraq dövlət-din münasibətləri baxımından nümunə olacaq bir ölkədir. Bu gün Azərbaycan tolerantlıq məkanı kimi dünya dövlətləri tərəfindən qəbul olunur. Ölkəmizə gələn xarici qonaqlar Azərbaycanın bu sahədə çox böyük nəticələr əldə etdiyini qeyd edirlər. Bir məsələni də xüsusi vurğulamaq istəyirəm ki, ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi yüksək göstəricilər dövlətin digər sahələrdəki uğurları ilə də səsləşməlidir. Biz çox sürətlə irəliyə getməkdəyik və əldə olunan sosial-iqtisadi, diplomatik-siyasi uğurlar milli-mənəvi dəyərlərimizə də öz təsirini göstərməkdədir. Yəni cəmiyyətin sosial-siyasi həyatında baş verən dəyişikliklər istər-istəməz digər sahələrə də öz təsirini göstərir. Biz iqtisadi sahədə keçid dövrünü arxada qoymuşuq.

Azərbaycan dünyəvi dövlətdir və müstəqilliyinin dönməzliyini tam təmin edib. Ancaq milli-mənəvi sahədə xalqımız yeni mərhələyə qədəm qoyur. Yəni biz zamanında siyasi-iqtisadi sahədə sovet totalitar sisteminin qalıqlarını ləğv etməklə bərabər, həmin dövrdən milli-mənəvi dəyərlərimizə hopmuş olan bir sıra zərərli adətləri də aradan qaldırmalıyıq. Ona görə də bu proseslər paralel getməlidir. Milli-mənəvi dəyərlər sistemində müəyyən dəyişikliklərə zərurət yaranıb.

Dövlət-din münasibətləri dedikdə, biz ilk növbədə Azərbaycanda dini dəyərlərə dövlətin diqqət və qayğısını göz önünə gətiririk. Bu gün ölkədə 2050-dən çox məscid fəaliyyət göstərir. Eyni zamanda, xristian kilsələri, yəhudi sinaqoqları, digər dinlərin ibadət yerləri də açıq şəkildə fəaliyyət göstərir. Bu gün Azərbaycanda dini zəmində hər hansı qarşıdurma ehtimalı yoxdur. Prezidentimiz cənab İlham Əliyev çıxışlarında bu məsələni xüsusilə vurğulayıb. Ümumiyyətlə, Azərbaycan dövlət-din münasibətləri baxımından sözün həqiqi mənasında nümunə olacaq ölkədir.

**- Mübariz müəllim, hazırda ictimaiyyətdə 2015-ci ilin birinci yarısının yekunları geniş müzakirə olunur. Bu baxımdan, Dövlət Komitəsi qarşısında duran vəzifələri hansı səviyyədə yerinə yetirib?**

- Ümumiyyətlə, Dövlət Komitəsi işini günün tələblərinə uyğun qurur, aidiyyəti dövlət qurumları ilə əlaqəli fəaliyyət göstərir. Qeyd edim ki, bir neçə gün öncə cari ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrlə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində kollegiya iclası keçirilib. İclasda hesabat dövrü ərzində görülən işlər geniş təhlil edilib. Dövlət Komitəsi cari ilin birinci yarısında vəzifəsindən irəli gələn funksiyaların həyata keçirilməsi istiqamətində fəaliyyətini davam etdirib, mövcud qanunvericiliyi, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrini rəhbər tutub, milli və dövlətçilik maraqlarının qorunmasını prioritet hesab edib. Hesabat dövrü fəaliyyətimizdə effektivliyin və operativliyin artırılması, eləcə də dövlət-din münasibətlərinin daha səmərəli təşkilinin təmin edilməsi məqsədilə Komitədə aparılmış struktur dəyişikliyi ilə yadda qalıb. Belə ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, Dövlət Komitəsinin Əsasnaməsinə edilmiş dəyişikliyə uyğun olaraq, əvvəlki 9 bölgə şöbəsinin əsasında müvafiq dislokasiyalar üzrə yeni 15 bölgə şöbəsi, Komitənin Mərkəzi Aparatında 3 şöbə və 3 sektor yaradılıb. Eyni zamanda, Komitənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində zəruri işlər görülüb.

Dini qurumların dövlət qeydiyyatına alınması prosesi cari ilin altı ayında da davam etdirilib, onların ümumi sayı 632-yə çatıb. Ötən dövrdə 672 adda dini məzmunlu ədəbiyyatın ekspertizası aparılıb, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 147 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınıb.

**- Bu müddət ərzində çoxsaylı tədbirlər keçirmisiniz. Tədbirlərin əsas hədəfləri nədən ibarətdir? Dövlət Komitəsi tədbirlər vasitəsilə istənilən nəticəni əldə edə bilirmi?**

- Bu ilin ötən altı ayı ərzində xeyli tədbirlər keçirmişik. Tədbirlər Bakı şəhəri ilə yanaşı, regionları da əhatə edib. Belə ki, dini durumun öyrənilməsi, dini icmaların fəaliyyətinə nəzarətin gücləndirilməsi, radikal cərəyan və təriqətlərin fəaliyyətinin aşkarlanması, dini obyektlərin tikintisi barədə məlumatların yenilənməsi, dini təhsil müəssisələrinin fəaliyyətinin araşdırılması və əlamətdar dini mərasimlərlə bağlı tədbirlər görülüb. Din adı ilə milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasına qarşı mümkün vasitələrlə mübarizə davam etdirilib, bu istiqamətdə müvafiq dövlət qurumları ilə qabaqlayıcı, maarifləndirici, profilaktik və inzibati tədbirlər həyata keçirilib.

Həyata keçirilmiş birgə tədbirlər nəticəsində ölkədə dini radikalizmlə mübarizə, qeyri-qanuni ibadət yerlərinin fəaliyyətinin dayandırılması, dini nifrəti və ayrı-seçkiliyi ehtiva edən, eləcə də ölkəyə qeyri-qanuni idxal edilmiş dini təyinatlı ədəbiyyat və məmulatların satışının qarşısının alınması istiqamətində ciddi uğurlar əldə edilib. Ölkəyə qeyri-qanuni idxal olunmuş və ya respublika ərazisində istehsal edilən, dini nifrəti və ayrı-seçkiliyi ehtiva edən ədəbiyyat və məmulatların satışının qarşısının alınması məqsədilə də mütəmadi tədbirlər həyata keçirilib.

**- Ölkəmizdə fəaliyyət göstərən bir sıra dini qurumların layihələrinin maliyyələşdirilməsi ilə bağlı dövlət tərəfindən vəsait ayrılıb. Bu barədə nə deyə bilərsiniz?**

- Cari dövrdə "Azərbaycanda dini icmalara maliyyə yardımı göstərilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə ayrılmış 2,5 milyon manat vəsaitdən müsəlman və qeyri-müsəlman dini qurumlarına maliyyə ayrılıb. Həmin vəsaitin bölgüsü zamanı Komitədə dövlət qeydiyyatından keçmiş qeyri-müsəlman təmayüllü dini qurumlar və onların təəssübkeşlərinin sayı nəzərə alınıb. Ümumilikdə, qeyri-islam dini qurumlarına 400 min manat vəsait ayrılıb. Həmçinin, ayrılmış maliyyə vəsaitinin bölüşdürülməsi məqsədilə dini icmalardan milli-mənəvi dəyərlərimizin təbliğinə, dini maarifləndirmə işinin aparılmasına, gənclərin zərərli vərdişlərdən uzaqlaşdırılmasına xidmət edən layihələrin qəbuluna başlanılıb və layihələrlə bağlı müvafiq ekspert rəyi verilməsi üçün Dövlət Komitəsində Qiymətləndirmə komissiyası yaradılıb. Hesabat dövründə Qiymətləndirmə komissiyası bir qrup dini icmanın layihəsinə baxıb müsbət rəy verdikdən sonra Komitə həmin layihələri maliyyələşdirib. Hazırda bu istiqamətdə işlər davam edir.

**- Mübariz müəllim, bir sıra müsəlman ölkələrində dini zəmində ciddi problemlərin davam etdiyini müşahidə edirik. Bunun müxtəlif səbəbləri var. Siz Azərbaycan xalqının dini dünyagörüşünü necə xarakterizə edərdiniz?**

- Azərbaycan xalqı çox böyük tarixi yol keçib, tariximiz çox qədimdir. Xalqımız İslama qədər də müəyyən dini dünyagörüşünə malik olub. Biz VII əsrin ortalarından İslamı qəbul edən xalqıq. Bu gün dünyada 60-a qədər ölkədə İslam aparıcı din olaraq mövcuddur. 57 ölkə İslam Əməkdaşlıq Təşkilatında birləşir və Azərbaycan İƏT-də öz mövqeyi olan dövlətlərdən biridir. Bilirsiniz ki, Azərbaycan əhalisinin 96 faizi müsəlmandır, 4 faizi isə müxtəlif dinlərin daşıyıcısıdır. Xalqımızın dini dünyagörüşünə gəldikdə isə biz uzun illər çar Rusiyasının və Sovetlər Birliyinin tərkibində olmuşuq. Bu zaman, xüsusilə sovetlərin ideoloji dövlət olması dinə də öz təsirini göstərib. Sovet rejimi ateizmi təbliğ etdiyi üçün Azərbaycanda tarixdən gələn adət-ənənələrimizə bəzi mənfi təsirlər olub. Amma bu gün demək olar ki, əksəriyyət müsəlman adətlərini yerinə yetirir. Amma bütövlükdə götürəndə biz digər müsəlman ölkələrindən dünyəviliyimizə görə fərqlənirik. Ölkəmizdə nə qədər təbliğat aparsalar da, yad təsirlər müəyyən qədər müdaxilə etsə də, hər hansı ciddi problem yoxdur. Yad təsirlər mədəniyyətimizə, incəsənətimizə, dinimizə müdaxilədə özünü göstərir. Amma nə Qərb mədəniyyətinin mənfi çalarlarının, nə də dini xurafatın burada kökü yoxdur. Bu da cəmiyyətimizin dünyagörüşünün, intellektinin yüksək olmasının göstəricisidir.

**- Sizcə, İslam dininin mahiyyətini yaxşı bilməmək hansı fəsadlar yarada bilər?**

- Din insanların inancıdır, dünyagörüşüdür, əxlaqıdır. Əgər kimsə öz keçmişini yaxşı bilmirsə, öz milli müqəddaratını qoruya və müdafiə edə bilməz. Əgər öz dinini yaxşı bilmirsə, kənar dinlərin, dindəki mənfi cərəyanların təsiri altına düşə bilər. Ona görə də, İslamı yaxşı bilməsək, Qurani-Kərimi, Peyğəmbərimizin yolunu yaxşı bilmiriksə, təbii ki, insanın başqa təsirlər altına daha tez düşməsi istisna deyil. Məsələn, biz əgər radikal qrupların yayıldığı coğrafiyaya baxsaq, harada islami bilgilər zəifləyibsə, radikallar dini əbaya bürünərək fəallaşıblar. Onlar dini siyasiləşdirir və ondan istifadə etməyə cəhd göstərirlər. Ona görə də, İslamı olduğu kimi bilmək vacibdir. Əgər kimsə özünü müsəlman hesab edirsə, İslam dinin mahiyyətini öyrənməlidir.

İslam dünyasında dindən sui-istifadə hallarına rast gəlirik və qarşıdurmaları da görürük. Müəyyən qüvvələr insanların dini biliyinin aşağı olmasından istifadə edərək onları terrora və digər neqativ yollara cəlb edirlər. Azərbaycanda insanların dini bilikləri zəif ola bilər, amma dünyəvilik, sağlam və savadlı cəmiyyət din faktorundan sui-istifadəyə imkan vermir. Bununla belə, insanlar din haqqında ətraflı bilgi əldə etməlidir.

**- Bəs cəmiyyətdə bu istiqamətdə geniş təbliğat işlərinin aparılmasına nə dərəcədə ehtiyac var? Maarifləndirmə işləri hansı nəticələri verir?**

- Hesab edirəm ki, dini intellektual səviyyənin yüksəlməsi üçün kütləvi informasiya vasitələrində İslam dini haqqında həqiqi bilgini insanlara çatdırmalıyıq. Hansı ölkədə bu işlər görülürsə insanların yad və zərərli təsir altına düşmə ehtimalı azalır. Azərbaycanda bu baxımdan sabitlikdir, radikalların sosial dayaqları yoxdur. Cəmiyyətin dünyəvi dünyagörüşünün yüksək olması hansısa xurafata inanmağa imkan vermir. Amma arxayınlaşmaq da olmaz.

Bilirsiniz ki, bu yöndə maarifləndirmə işləri aparılır. Qeyd etdiyim kimi, ölkə Prezidenti tərəfindən bununla bağlı Dövlət Komitəsinə əlavə vəsait ayrılıb. Biz bu vəsaiti dini icmalarda dini maarifləndirmə

⇨ 7

# İlham Zəkiyevə Brayl əlifbası ilə çap edilmiş Qurani-Kərim təqdim olunub



Avqustun 19-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanın paralimpiyaçı cüdoçusu, ikiqat Paralimpiya, beşqat Avropa və dünya çempionu, I Avropa Oyunlarının qızıl medalçısı İlham Zəkiyevlə görüşüb.

Azərbaycanda keçirilən I Avropa Oyunlarının xalqımız üçün qürurverici hadisə olduğunu, Azərbaycanın sözün həqiqi mənasında Avropa Oyunlarının standartlarını müəyyənləşdirdiyini deyən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mötəbər yarışla bir daha dünyaya gücümüzü göstərdiyimizi bildirib. İdmana diqqət və qayğının dövlət siyasəti olduğunu deyən Komitə sədri ölkə başçısı cənab İlham Əliyevin idmanın maddi-texniki bazasının gücləndirilməsi, eləcə də idmançıların dövlətin xüsusi qayğısı ilə əhatə olunmaları, istedadlı idmançıların potensial imkanlarının inkişafı üçün daima geniş imkanlar yaratdığını bildirib.

Mübariz Qurbanlı qeyd edib ki, İlham Zəkiyevin həm döyüşçü, həm də idmançı kimi keçdiyi şərəfli yol hər bir gənc üçün nümunə və qürur mənbəyidir.

Dövlət Komitəsinin sədri İlham Zəkiyevə möhtərəm Prezidentimiz İlham Əliyevin göstərişinə əsasən dini kitabların çapı üçün ayrılmış vəsait hesabına Azərbaycanda ilk dəfə gözdən əlil insanlar üçün Brayl əlifbası ilə nəşr olunan Qurani-Kərim hədiyyə edib və idmançıya 2016-cı ildə Rio-de-Janeyro şəhərində keçiriləcək Yay Paralimpiya Oyunlarında uğurlar arzulayıb.

İlham Zəkiyev diqqətə və hədiyyəyə görə təşəkkürünü bildirib. O qeyd edib ki, Brayl əlifbası ilə nəşr olunmuş Qurani-Kərim onun aldığı ən qiymətli hədiyyələrdən biridir. İlham Zəkiyev növbəti Olimpiya Oyunlarına hazırlaşdığını və Azərbaycan bayrağını ucaltmaqdan şərəf duyduğunu deyib.

Görüşdə Dövlət Komitəsinin sədr müavinləri Səyavuş Heydərov və Gündüz İsmayılov iştirak ediblər.

# Mübariz Qurbanlı: İslami dəyərlər milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir və biz bunu qorumalıyıq

6 ⇦ işinin gücləndirilməsi istiqamətində proqramlara yönəldirik. Hesab edirəm ki, dini maarifləndirmə sahəsində xeyli işlər görülüb. Ancaq bu, ardıcıl olaraq davam etdirilməlidir. Komitə cari ilin birinci yarısında milli maraqlarımıza zidd olan, qeyri-ənənəvi dini cərəyanların yayılmasının qarşısını almaq üçün qabaqlayıcı amil kimi maarifləndirmə tədbirlərinə üstünlük verib. Hesabat dövründə bu məqsədlə bir sıra tədbirlər həyata keçirilib. Belə tədbirlərdən biri kimi "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda 12 regional konfrans keçirilib. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, digər mərkəzi və yerli icra orqanları, vətəndaş cəmiyyəti institutları ilə Dövlət Komitəsinin müvafiq şöbələri sıx əməkdaşlıq edir, birgə tədbirlər təşkil olunur.

"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramında ölkə gənclərinin milli -mənəvi, ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması ilə bağlı nəzərdə tutulmuş vəzifələrin icrasını təmin etmək məqsədilə Komitə müvafiq dövlət qurumları ilə birgə silsilə xarakterli maarifləndirici tədbirlər keçirib. Qafqaz Müsəlmanları İdarəsi imamlar, axundlar, din xadimləri üçün təkmilləşdirmə kursları təşkil edib. Məscidlər irfan, mədəniyyət mərkəzinə çevrilməlidir, axundlar və imamlar təkcə dini yox, dünyəvi bilgilərə də malik olmalıdır. Orta əsrlərdə mütəfəkkirlərimizin əksəriyyəti məscidlərdə yetişdirilirdi. Amma sovet dövründə dindarlar yalnız yas mərasimlərini aparan insanlara bənzədilib və indi də belə düşünənlər az deyil. Bu, doğru yanaşma deyil.

Görülən işlər müsbət nəticələr verməkdədir. Mən məscidlərə gedirəm, xütbə kitablarına baxıram və artıq yeni nəsil yetişdiyini görürəm. Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin, eləcə də Bakı İslam Universitetinin tələbələrindən yüksək mütəxəssislər yetişir. Onlar yüksək biliklərə sahib din xadimləri kimi formalaşırlar. Doğrudur, hələ də xarici təsirlər var və onlar məscidlərə də girmək istəyirlər. Amma biz buna yol verməyəcəyik. Biz çalışmalıyıq ki, vətəndaşlarımız İslam dəyərlərini dərindən öyrənsin. İslam dini yalnız hicabdan, yas mərasimlərində istifadə olunan ayinlərdən ibarət deyil. İnsanlar İslam elmindən nəyisə əxz edərək həyatında tətbiq etməlidir. İslam dini əxlaqı, insanlığı, paklığı, halallığı təbliğ edir. İslami dəyərlər milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir və biz bu dəyərləri qorumalıyıq.

# "Miqrantların yaranması Avropanın ikili siyasətinin nəticəsidir"

"Avropanın miqrantlarla bağlı qəbul etdiyi qərar bizi bir tərəfdən təəssüfləndirir, bir tərəfdən təəccübləndirir, digər tərəfdən isə Avropada siyasi elitanın, siyasi dairələrin ikili standartdan çıxış etdiyini bariz şəkildə nümayiş etdirir. İnsan haqlarından, tolerantlıqdan, bərabərlikdən danışan Avropa siyasətçiləri, ATƏT-in iclaslarında ayrı-ayrı ölkələrdəki hadisələri şişirtməklə məşğul olanlar, Avropa Şurasının tribunasından öz siyasi məqsədləri üçün müxtəlif ölkələrə təzyiq vasitəsi kimi istifadə edənlər indi nə üçün susurlar? Nə üçün ikili yanaşmaya öz münasibətlərini bildirmirlər?"

Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini Mübariz Qurbanlı deyib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri qeyd edib ki, qərar qəbul olunmamışdan əvvəl miqrantların yaranma səbəbləri araşdırılmalı idi: "Miqrantların yaranması məhz Avropanın, Qərb ölkələrinin apardıqları ikili siyasətin məntiqi nəticəsidir. Yəni zamanında Şimali Afrikadakı, Yaxın Şərqdəki hadisələrə ikili yanaşılmasaydı, müəyyən proseslərə süni müdaxilələr edilməsəydi, müxtəlif ölkələrin daxili işlərinə siyasi məqsəd və maraqlar naminə qarışılmasaydı, indi də bu qədər miqrant yaranmazdı. Bu gün Yaxın Şərqdə, Şimali Afrikada, o cümlədən dünyanın müxtəlif bölgələrində bütövlükdə 30-a yaxın münaqişə ocağı var. 30-a yaxın münaqişə ocağında qanlı savaş gedir. Bu savaşların kökündə iqtisadi bərabərsizlik, Avropanın özü üçün çətir düzəldərək qorunmaq üçün başqalarını istismar siyasəti, yeni imperializm siyasəti dayanır".

Mübariz Qurbanlı, həmçinin qeyd edib ki, Avropa ölkələrində miqrantların yerləşdirilməsində müsəlmanlara qarşı ayrı-seçkilik edilməsi də elə həmin siyasətin bir hissəsidir: "Bu, islamafobiyadır, insan haqlarına qarşı yönəlmiş siyasətdir, dünyanı bölmə siyasətidir, multikulturalizmə, tolerantlığa qarşı yönəlmiş siyasətdir. Bu da əlbəttə ki, insanlarda haqlı olaraq hiddət yaradır. Bütün bunlara son qoymağın bir yolu var. O da dünyada multikultural, tolerant dəyərlərə hörmət etmək. Ayrı-ayrı dinlərə görə, ayrı-ayrı konfessiyalara görə yox, dünyada gedən hadisələri real olaraq nəticələrə uyğun şəkildə həll etmək lazımdır. Çox təəssüf ki, Qərb dünyası hələ də orta əsrlərdə olduğu kimi özünün maraqları naminə başqalarını güdaza vermək siyasəti yürüdür".

# İŞİD-in Azərbaycanda heç bir dayağı, sosial bazası yoxdur və ola da bilməz

***"İŞİD qruplaşması Türkiyə üzərindən Naxçıvanla sərhəddə Azərbaycana yaxınlaşması, Azərbaycanda bu təşkilata meyilli radikalların hansısa ayrı-ayrı şəxslərin ətrafında mərkəzləşməsi ilə bağlı yayılan məlumatlar da əsassızdır". Bunu APA-ya açıqlamasında da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib.***

Dövlət Komitəsinin sözlərinə görə, təəssüf ki, bəzi mətbuat orqanları bəzi radikal din nümayəndələrini lider kimi təqdim edib, onların bəyanatlarını tirajlayırlar və bununla cəmiyyətdə yanlış təəssürat yaradırlar. İŞİD-in nəinki regionda, dünyanın gündəmində olduğunu xatırladan Komitə sədri deyib ki, Azərbaycanda İŞİD-in heç bir dayağı, sosial bazası, məntəqəsi yoxdur və ola da bilməz: "Hansısa xırda radikal qruplaşma burada İŞİD-in tezislərini təkrar edirsə, bu o demək deyil ki, Azərbaycanda bunların hansısa dayağı olsun. Bu qruplaşmaya bağlı, digər qruplaşmaya əsaslanan bəzi radikal təşkilatlar Şimali Qafqazda, həm də Azərbaycanda yayılmaq, tərəfdarlar toplamaq istəyirlər. Cəhdlər var. Amma bilsinlər ki, bu cəhdlərin qarşısı qətiyyətlə alınacaq. Həm hüquq-mühafizə orqanlarımız bununla bağlı yüksək qabaqlayıcı tədbirlər görürlər, həm də maarifləndirici-ideoloji tədbirlərimiz yüksək rol oynayır".

Komitə sədri vurğulayıb ki, Azərbaycanda müəyyən radikal qüvvələr var: "Amma onlara qarşı digər qurumlarla birgə apardığımız işlər kifayət qədər yaxşı nəticələr verir. Biz məscidlərdə bu qruplaşmaların təbliğat aparmasının qarşısını alırıq və alacağıq. Qafqaz Müsəlmanları İdarəsi ilə birgə bu işi görürük. O ki qaldı hansısa silahlı birləşmələrə adam toplamaq ilə məşğul olanlara, birbaşa terror qruplaşmalarının təbliğatını aparanlara, onlara qarşı da müvafiq qurumlar məşğul olurlar, zaman- zaman bu cür şəxslər olarsa cavab verməli olacaqlar".

# “Ənənəvi İslam dəyərləri və müasirlik” mövzusunda regional konfranslar keçirilib




**ŞƏMKİRDƏ**

**Avqustun 24-də Şəmkirdəki Heydər Əliyev Mərkəzində “Ənənəvi İslam dəyərləri və müasirlik” mövzusunda regional konfrans keçirilib.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Şəmkir Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən konfransdan əvvəl iştirakçılar Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyublar. Konfransı giriş sözü ilə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov açıb. DQİDK-nın sədri Mübariz Qurbanlı “Ənənəvi İslam dəyərləri və müasirlik” mövzusunda məruzə ilə çıxış edib.

Sonra Milli Məclisin deputatları Məlahət İbrahimqızı, Sahibə Qafarova, Qafqaz Müsəlmanları İdarəsinin Gəncəbasar üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbaslı, Yeni Azərbaycan Partiyası Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev çıxış edərək İslamın yad təsirlərdən qorunmasında, dini radikalizmə qarşı mübarizədə hər kəsin yaxından iştirak etməsinin, bu sahədə maarifləndirmə işinin ardıcıl və məqsədyönlü şəkildə aparılmasının zəruriliyindən danışıblar.

Konfrans Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun moderatorluğu ilə “Ənənəvi İslam dəyərlərimiz və gənclik” mövzusunda plenar iclasla davam etdirilib. İclasda komitənin sədr müavini Səyavuş Heydərovun “Dini ekstremizmlə mübarizə”, şöbə müdiri Ruslan Əsgərovun “Sosial mediada din təbliğatı”, sektor müdiri Anar Əlizadənin “Azərbaycanda missionerlik fəaliyyəti” mövzularında məruzələri dinlənilib.

**DAŞKƏSƏNDƏ**

Avqustun 25-26-da Daşkəsəndə “Ənənəvi İslam dəyərləri və müasirlik” mövzusunda ikigünlük regional konfrans keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Daşkəsən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən konfransda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Daşkəsən rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, Milli Məclisin deputatı Rövşən Rzayev, Qafqaz Müsəlmanları İdarəsinin Gəncəbasar üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbaslı, eləcə də rayonda fəaliyyət göstərən dini icmaların rəhbərləri, din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

Tədbirin açılışında çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda dövlət-din münasibətlərinin, eləcə də milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında əvəzsiz xidmətlərindən danışıb. O bildirib ki, Azərbaycan hökuməti dinə xüsusi qayğı göstərir, bu gün də Ulu Öndərin dinlə bağlı siyasəti onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Konfransda mövzu ilə bağlı DQİDK-nın sədri Mübariz Qurbanlının “Ənənəvi İslam dəyərləri və müasirlik” mövzusunda məruzəsi dinlənilib. Komitə sədri çıxışında Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş müstəqilliyimizin, iqtisadi və sosial inkişafımızın dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyindən danışıb. Onun sözlərinə, Azərbaycan dövlətinin böyük uğurudur ki, bizim milli müstəqilliyimiz dünya tərəfindən qəbul edilir və biz müstəqilliyimizi 24 ildir qoruyuruq. Mübariz Qurbanlı bildirib ki, gələcək nəsillərə də müstəqilliyimizi daha da inkişaf etmiş, iqtisadi cəhətdən daha çox təmin edilmiş, ərazi bütövlüyümüz bərpa edilmiş şəkildə təqdim etməliyik. Bu bizim əsas missiyamızdır.

Komitə sədri Azərbaycanda dini sabitliyin hökm sürdüyünü, ölkəmizdə dövlət-din münasibətlərinə xüsusi həssaslıqla yanaşıldığını, zəngin multikulturalizm ənənələrinin qorunub saxlanılması, təbliği istiqamətində bir çox tədbirlər həyata keçirildiyini deyib.

Daha sonra Milli Məclisin deputatı



Rövşən Rzayev, Qafqaz Müsəlmanları İdarəsinin Gəncəbasar üzrə səlahiyyətli nümayəndəsi hacı Tahir Abbaslı mövzu ilə bağlı çıxış edərək, ölkədəki dini durum, radikalizmə qarşı mübarizə, dini maarifləndirmə işinin səmərəli təşkili barədə fikirlərini bölüşüblər.

Konfransın ilk iş günü başa çatdıqdan sonra Komitə sədri Mübariz Qurbanlı Daşkəsən şəhərindəki “Cümə” məscidində dindarlarla görüşüb, məscidə kitablar hədiyyə edib.

* * *

Konfrans işini avqustun 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun moderatorluğu ilə “Ənənəvi dini dəyərlərimiz və gənclik” mövzusunda plenar iclasla davam etdirib. İclasda Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov, Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Dini təhsil sektorunun müdiri Anar Əlizadə, eləcə də rayon ictimaiyyətinin nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov “Ənənəvi dini dəyərlərimiz və gənclik” mövsuzunda çıxış edərək gənclərin zərərli təriqətlərin təbliğindən qorunması üçün milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasının vacibliyindən danışıb. Gündüz İsmayılov bildirib ki, bu sahədə bölgələrdə dini maarifçilik işləri daha da gücləndirilir, gənclər arasında dini savadlılığın artırılması istiqamətində tədbirlər görülür.

Daha sonra Ruslan Əsgərovun “Sosial mediada din təbliğatı” mövzusunda məruzəsi dinlənilib. Ruslan Əsgərov sosial mediada dini təbliğatın xarakterik xüsusiyyətləri, sosial şəbəkələrin ictimai-siyasi proseslərə təsiri, zərərli dini cərəyanların sosial media vasitəsilə sıralarını genişləndirmələri, təhlükəli çağırışlar səsləndirmələri, öz aralarında məlumat mübadiləsi aparmaları  və bu problemlərdən çıxış yolları barədə ətraflı məlumat verib.

“Azərbaycanda missionerlik fəaliyyəti” barədə məruzə ilə çıxış edən Dini təhsil sektorunun müdiri Anar Əlizadə Azərbaycanda fəaliyyət göstərən əsas zərərli missioner qruplar, onların xarakterik cəhətləri barədə danışıb.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Daşkəsəndə vətəndaşları qəbul edib



***Prezident İlham Əliyevin tapşırıq və tövsiyəsinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir, onların müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün müvafiq tədbirlər görürlər.***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı avqustun 25-də Daşkəsəndə vətəndaşları qəbul edib. Qəbulda Daşkəsənlə yanaşı, Gəncə, Samux, Göygöl sakinləri də iştirak ediblər.

Dövlət Komitəsinin sədri vətəndaşların müraciətlərini diqqətlə dinləyərək bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün göstərişlər verib. Bir sıra müraciətlər yerindəcə həll edilib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə baxılması və müvafiq tədbirlərin görülməsi üçün əlaqədar qurumlara çatdırılmaq məqsədilə qeydiyyata alınıb.

Müraciətlər əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini kitabların və ləvazimatların satışı üçün mağazaların lisenziyası və digər məsələlərlə bağlı olub.



# Ağdamda "Dini və mənəvi dəyərlər" mövzusunda tədbir keçirilib

***Ağdamın Quzanlı qəsəbəsindəki mədəniyyət evində "Dini və mənəvi dəyərlər" mövzusunda tədbir keçirilib.***

***Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Ağdam Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri, ziyalılar, gənclər, din xadimləri iştirak ediblər.***

Tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək düzüb, xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı, Əməkdar jurnalist Bəxtiyar Sadıqovun ssenarisi əsasında hazırlanan "Ruhlar şəhərinin sakinləri" filminin təqdimatı olub. Filmin ssenari müəllifi Bəxtiyar Sadıqov çıxışında deyib ki, 20 dəqiqəlik ekran əsəri hazırda "Ruhlar şəhəri" adlanan Ağdama, Qarabağ ağrı-acılarına, faciələrinə həsr olunub. Filmdə şərti olaraq dörd surət var. Bunlar Ağdam şəhərini tərk etməyən ruhların, Ağdamdan kənarda doğulan uşaqların, doğma yurd-yuvalarına qayıtmaq ümidi ilə yaşayan qocaların, işğal altında olan torpaqlarımızı azad etmək əzmində olan əsgərlərin obrazlarıdır.

Erməni vandallarının vəhşiliklərinin ifşasına, habelə məcburi köçkünlərin yurd həsrətinə və torpağa bağlılığına həsr edilən filmin rejissoru Kəmalə Mirzəyeva, redaktoru İxtiyar Hüseynli, layihə rəhbəri Bəxtiyar Qaracadır. Mətni Əməkdar artist Azad Şükürov səsləndirib.

Film nümayiş olunduqdan sonra tədbir davam etdirilib. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov çıxış edərək, xalqımızın əsrlər boyu formalaşdırdığı milli-mənəvi dəyərlərdən və onun qorunmasından, ölkəmizdə hökm sürən və bütün dünyaya nümunə olan tolerantlıq mühitindən danışıb.

Tədbirdə çıxış edən DQİDK sədri Mübariz Qurbanlı xalqımızın milli-mənəvi dəyərlərindən, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş "Azərbaycançılıq" ideologiyasından, ölkəmizdə ayrı-ayrı dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətlərindən bəhs edib.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərə qayıdışının sürətləndiyini vurğulayan Komitə sədri deyib ki, əgər dövlət müstəqilliyinin ilk illərində ölkədə 17 məscid var idisə, bu gün onların sayı 2050-yə çatıb. Məscidlərlə yanaşı, kilsə və sinaqoqlar da inşa olunur, təmir edilir. Dini icmalara maddi yardımlar göstərilir.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu dövlət-din siyasətinin bu gün yüksək səviyyədə davam etdirildiyini diqqətə çatdıran M.Qurbanlı Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün imzaladığı müvafiq Sərəncamın önəmindən də danışıb.

Komitə sədri bu gün dünyada din pərdəsi adı altında aparılan münaqişələrdən bəhs edərkən bildirib ki, əgər orta əsrlərdə müxtəlif dinlər arasında müharibələr aparılırdısa, bu gün İslam dini içərisində münaqişələr gedir. İslam dininin genişlənməsindən narahat olan qüvvələr onun bütövlüyünü pozmağa, parçalamağa çalışırlar. Müxtəlif ölkələrdə İslamı parçalamaq üçün dini cərəyanlar, radikal qruplar yaradılıb. İslam pərdəsi altında fəaliyyət göstərən bu radikal qruplar əslində İslama qarşı yönəldilib.

Ölkəmizdə belə qüvvələrin heç zaman məqsədlərinə çata bilməyəcəklərini vurğulayan Komitə sədri onların qarşısının qətiyyətlə alındığını, dini radikalizmə qarşı qanun çərçivəsində mübarizə aparıldığını deyib. Bildirilib ki, bu mübarizədə ən səmərəli vasitə maarifləndirmə işidir. Bu işdə hüquq mühafizə orqanları ilə yanaşı din xadimləri, müəllimlər də fəal olmalıdırlar. İslam dini gənclərə olduğu kimi izah edilməli, ənənəvi islami dəyərlər qorunmalıdır.

Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev və Elman Məmmədov, rayonun axundu Barat Bağırov və başqaları mövzu ilə bağlı çıxış edib, fikirlərini bildiriblər.

Tədbirdən sonra DQİDK sədri Mübariz Qurbanlı və Milli Məclisin deputatları Xındırıstan kənd məscidində, Çəmənli kəndində Seyid Lazım Ağa ziyarətgahında olub, dindarlarla görüşüblər. Məscid və ziyarətgaha gözdən əlil insanlar üçün brayl əlifbası ilə çap edilmiş "Qurani-Kərim" və digər dini kitablar hədiyyə edilib.

# İSLAMDA TOLERANTLIQ

Tolerantlıq insanların davranışlarını anlayışla qarşılayıb xoş görmək, insanlararası münasibətlərdə orta yolu izləmək, sərt və qatı olmamaq, öz düşüncə və inancına zidd düşüncə və inancları xoş görmək, fərqli olan şeylərə səbir göstərib dözmək, qarşılıqlı münasibətlərdə rahatlıq və dözümlülük deməkdir. Bütün bunlardan aydın olur ki, tolerantlıq kəlməsi özündə anlayış, hörmət göstərmək, üzrlü saymaq, əfvedici olmaq, səbir etmək, dözmək, mədəni olmaq, fərqli görüşlərə sərhəd qoymamaq və onlara mənfi reaksiya verməmək, fikirlərin qarşılıqlı anlayış və yetkinliklə müzakirə edilməsi kimi mənaları ehtiva edir.

Tolerantlıq və ya xoşgörü fərdlər arasında sevgi və hörməti artıran, aralarında güvən mühiti formalaşdıraraq onları bir-birinə yaxınlaşdıran əxlaqi bir fəzilətdir. Amma burada xüsusi vurğulamaq lazımdır ki, xoşgörü fərdin qarşı tərəflə hər hansı bir mövzuda həmfikir olması, hadisələrə laqeyd yanaşması və ya öz inancından, fikirlərindən, özünəməxsusluğundan imtina etməsi demək deyil, sadəcə fərqlilikləri dərk etməsi, fərqli inanc, düşüncə, şəxsiyyət və mədəniyyətlərə anlayış və yetkinliklə yanaşa bilməsidir.

Din və inanc azadlığı insanın sahib olduğu ən önəmli haqlardan biridir. Quranda fikir və inanc azadlığını ifadə edən ayələrdən bəziləri belədir:

**"Dində məcburiyyət (zorakılıq) yoxdur..."** (Bəqərə, 256); **"...(Ya Peyğəmbər!) Sən onlara zor edən (onları zorla imana gətirən) deyilsən..."** (Qaf, 45); **"Və de: "Haqq Rəbbinizdəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın (kafir olsun)..."** (Kəhf, 29); **"Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?!"** (Yunus, 99) və s.

Ayələrdən göründüyü kimi, insanlar iman gətirib-gətirməməkdə azaddırlar, müsəlman ancaq gözəl əxlaqı yaymağa məsul tutulmuşdur. Hidayəti verən Allah-Təaladır. Müsəlman inanclı və ya inancsız hər bir insana şəfqətlə yanaşmalıdır.

Qurana əsasən, müsəlman özünün, ata-anasının və yaxınlarının əleyhinə olsa belə, ədalət tərəfdarı olmalı (Nisa, 135), inancından asılı olmayaraq, hər kəsin haqqını müdafiə etməli, onlara ədalətlə yanaşmalıdır. Uca Yaradan müsəlmanlara özlərini sipər edərək bir müşriki, yəni iman gətirməyən bir insanı qorumağı əmr edir:

"Əgər (basqına uğrayan) müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını (Quranı) dinləsin. Sonra (islamı qəbul etmədiyi təqdirdə) onu əmin olduğu (müşriklərin yaşadığı) yerə çatdır. Çünki onlar (haqqı) bilməyən bir tayfadır!" (Tövbə, 6). Bir inkarçını qorumaqla məsul olan müsəlmanın mənimsəməli olduğu din əxlaqı açıq şəkildə ortadadır.

Allah Rəsulu da (s) İslamı insanlara təbliğ etdikdən sonra, onları vicdanlarıyla baş-başa buraxmış, iman edənləri "din qardaşı" olaraq qəbul etmiş, İslamı qəbul etməyib öz din və inanclarında qalmaq istəyənlərə qarşı hər hansı mənfi münasibət göstərməmiş, onlara xoşgörü və hörmətlə yanaşmış, səhabələrinə də belə etmələrini buyurmuşdur. Onun bu davranaşlarının təməli yenə də Qurana söykənir. Belə ki, Allah-Təala Öz Peyğəmbərinə (s) kafirlərə necə müraciət etməli olduğunu Quranda bildirmiş və aydın şəkildə demokratik sistem təsvir etmişdir:

**"(Ya Peyğəmbər!) de: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə (bütlərə) ibadət etmərəm! Siz də mənim ibadət etdiyimə (Allaha) ibadət etməzsiniz! Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm! Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz! Sizin öz dininiz var, mənim də öz dinim! (Elə isə sizin dininiz sizə, mənim dinim də mənə)!"** (Kafirun, 1-6).

"De" ilə başlayan bu ayələr Həzrət Məhəmmədə (s) ən mükəmməl demokratik sistemi və bu sistemin tətbiqini təsvir edir. Surə "Sizin dininiz sizə, mənim dinim mənədir" hökmü ilə bitir, yəni müsəlman başqalarının inancına qarışmamalı, təzyiq göstərməməli, müsəlman olmadığı üçün başqasına zülm etməməlidir. Onlara "sizin dininiz sizə" deyərək hörmət göstərməli, "mənim dinim mənə" deyərək də eyni hörməti tələb etməlidir.

Nəticə olaraq deməliyik ki, xoşgörüsüzlüyün və şiddətin meydan suladığı müasir dövrdə bəşəriyyət İslamın xoşgörü və ədalət anlayışına, başda din və inanc azadlığı olmaqla bir çox sahədə hər zamankından daha çox möhtacdır. Bu da ancaq dinimizi yaxından öyrənmək və yaşamaqla, Allah-Təalanın aləmlərə rəhmət olaraq göndərdiyi peyğəmbərin yolundan getməklə mümkündür.

***Vəfa KƏRİMZADƏ***



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun müsahibəsi AZƏRTAC-a müsahibəsi



# Səyavuş Heydərov: Mənəviyyatımız olan İslam dininin siyasiləşdirilməsi yolverilməzdir

**- Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində sizin də iştirak etdiyiniz "İslam dini ekstremizmə və terrorizmə qarşıdır" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransla bağlı təəssüratlarınızı, eləcə də dini ekstremizmə və terrorizmə qarşı mübarizənin effektivliyinə təsir göstərən amillər barədə fikirlərinizi bilmək maraqlı olardı.**

- Tacikistanda keçirilən "İslam dini ekstremizmə və terrorizmə qarşıdır" adlı beynəlxalq konfransda dini ekstremizm və terrorizm anlayışları ilə yanaşı, onu yaradan səbəblərə, bəşəriyyəti narahat edən bir sıra digər aktual məsələlərə toxunuldu. Dünyada dini zəmində baş verən proseslərdə bəzi dövlətlərin, xüsusilə Qərb dövlətlərinin ikili standartlar nümayiş etdirməsi ilə bağlı müəyyən fikirlər səsləndirildi. Müzakirələr zamanı iştirakçı dövlətlərdən bir qismi bu ikili standartlara qarşı sərt tənqidi mövqedən çıxış etdilər. Xüsusilə, Qırğız Respublikasının nümayəndə heyəti bu məsələyə münasibətini kəskin şəkildə bildirdi və proseslərin bu cür davam etməsi fonunda Qərbə inteqrasiyanın dayandırılmasını da istisna etmədi.

Mövzu ilə bağlı sualınıza gəldikdə isə bildirim ki, ümumiyyətlə, İslam dini ümumbəşəri dindir, mahiyyəti etibarilə sülh və əmin-amanlıq dinidir. İslam dininin ortaya qoyduğu ümumi prinsiplər insanları qardaşlığa, birliyə, bərabərliyə səsləyir. Məhz buna görə İslam dininə maarifçilik aspektindən yanaşsaq, müasir dövrümüzdə meydana gələn bir çox problemlərin kökündən həllinin şahidi ola bilərik. Lakin bir faktı unutmaq lazım deyil ki, İslam dinindən siyasi və iqtisadi maraqlar naminə alət kimi istifadə edilməsi, siyasiləşdirilməsi cəhdləri onun terror və müharibədə qorxulu silaha çevrilməsinə səbəb ola bilər. Tarixi təcrübə bunu əyani şəkildə sübut edir. Konfransda da qeyd edildiyi kimi, bəzi dairələr tərəfindən İslam dinində yer alan məzhəblərarası münasibətlərin süni şəkildə kəskinləşdirilməsi cəhdləri həyata keçirilir. Dünyəvilik prinsipləri ilə idarə edilən dövlətlərə dindarların hüquqlarının müdafiəsi, eləcə də İslam qanunları ilə idarə olunan dövlətlərə "demokratik" prinsiplərin təlqin olunması adı altında siyasi, hərbi müdaxilələrin edilməsi və bu hadisələrin arxasında hansı qüvvələrin durduğu artıq heç kimə sirr deyil. Burada, eyni zamanda, müəyyən qüvvələrin, xüsusilə erməni lobbisinin ümumilikdə İslam dünyasının, o cümlədən Azərbaycanın inkişaf və tərəqqisini həzm edə bilmədikləri özünü aydın şəkildə büruzə verir. Bu qüvvələr dərk edirlər ki, İslam dininin həqiqi prinsipləri multikultural dəyərlərin inkişafına, müasir dövrdə müxtəlif xalq və millətlərin, etnik və dini qrupların bir yerdə sülh şəraitində yaşamasına münbit şərait yaradır. Belə ki, Azərbaycan dövləti multikulturalizmi və dini tolerantlığı dövlət siyasətinə çevirməklə bu şəraiti ölkəmizdə nümunəvi bir şəkildə formalaşdırmağı bacarıb.

**- Artıq hər kəs etiraf edir ki, bu gün dünya iqtisadi böhranla yanaşı, mənəvi sahədə də dərin böhran içindədir. Konfransda mənəvi böhranın İslam ölkələrinə təsiri haqqında fikir mübadiləsi aparıldımı?**

- Konfransda bir sıra məqamlarla yanaşı, bu məqama da toxunuldu. İslam dünyasında mənəvi böhranın əsas təzahürü kimi terror qruplaşmalarının, xüsusilə İŞİD-in fəaliyyəti əsas müzakirə mövzularından biri oldu. Qeyd edildi ki, İslam dini zəmində baş verən silahlı münaqişələr, o cümlədən İŞİD-in simasında terror və ekstremizm dini kimi təqdim edilir. Bu da öz növbəsində dünyada islamofobiya meyillərinin güclənməsinə səbəb olmaqla yanaşı, İslam ölkələrinə qarşı münasibətdə də aqressiv mövqe nümayiş etdirilməsinə gətirib çıxarır. Təəssüf doğuran məqamlardan biri odur ki, bəzi iştirakçı dövlətlər dini sahədə mövcud vəziyyətin saxlanılması və İslam dinində yer alan qeyri-ənənəvi təriqətlərin İslam dünyasında vahid ideologiyaya çevrilməsi ilə bağlı təklif irəli sürdülər. Bu cür fikir ayrılıqlarının yer aldığı bir şəraitdə İslam aləmində birlik təmin edilmədikcə mənəvi böhranın daha da dərinləşməsi, multikultural dəyərlərin uçuruma yuvarlanması labüddür. Hər kəs yaxşı dərk etməlidir ki, İslam ölkələri arasında birliyin olmaması dini ekstremizm və terrorizmə qarşı vahid mübarizə strategiyasının ortaya qoyulmasına da maneçilik törədir. Məhz bu səbəbdən qeyd edilən tədbirdə ölkələr mübarizə üsulları ilə bağlı müəyyən fikirlər, o cümlədən İslam dünyasında mövcud tənəzzülün qarşısının alınmasının vacibliyini bildirsələr də, vahid mövqe və mübarizə strategiyası ortaya qoyulmadı.

**- Multikulturalizmin Azərbaycan təcrübəsinin bu proseslərdə hansı əhəmiyyətli üstünlükləri var?**

- Azərbaycan Respublikası dünyəvilik prinsiplərinə əsaslanmaqla multikultural dəyərləri yaşatmaqda və inkişaf etdirməkdədir. Azərbaycan bu sahədə tarixi təcrübəyə malikdir və ölkəmizdə müxtəlif etnik, dini qrupların birgəyaşayış mühiti sağlam təməllər üzərində qurulub. Azərbaycan dövlətinin bu mövzuya hər zaman həssas mövqedən yanaşdığını qeyd etmək lazımdır. Dünyada multikulturalizm anlayışının dəyərdən düşdüyü və öz effektivliyini itirdiyi barədə fikirlərin formalaşdığı bir dövrdə Azərbaycan multikulturalizmin alternativsiz bir anlayış olduğunu əyani şəkildə sübut etməkdədir. Ölkəmizdə multikulturalizm nəinki siyasi xətt kimi, eyni zamanda, milli keyfiyyət kimi də təqdim olunmaqdadır. Azərbaycanda təkcə dinlərarası deyil, məzhəblərarası fərqliliklər də multikulturalizmin tərkib hissəsi hesab olunur. Azərbaycan multikulturalizminin fərqli cəhətlərindən biri də budur. Məhz buna görə multikulturalizmin Azərbaycan modeli nəinki ölkəmizdə və region dövlətlərində, bütün dünyada nümunəvi model kimi öyrənilə və geniş mənada tətbiq oluna bilər. Bu barədə təklif və tövsiyələrimiz konfransın işinin işıqlandırıldığı Tacikistanın "Din və cəmiyyət" jurnalında dərc olunub, onun iştirakçılarının və eləcə də ictimaiyyətin diqqətinə çatdırılıb.

**- Sizcə, İslam dünyasında dini zəmində baş verən silahlı münaqişələrin sona çatması üçün hansı prioritet məsələlər önə keçməlidir?**

- İslam dininin qeyd etdiyimiz sağlam təməlləri əsas götürülərsə, bir çox problemli məsələlər asanlıqla öz həllini tapa bilər. Bunun üçün ilk növbədə İslam dini siyasətdən uzaqlaşdırılaraq sırf elmi-mədəni müstəvidə öz inkişafını tapmalıdır. Bu gün İslam mədəniyyətinin, İslamın elmi gücünün ön plana çıxarılması, problemlərin silah gücü ilə deyil, qarşılıqlı anlaşma və tam elmi əsaslarla həll edilməsi dünyadakı bir çox münaqişə ocaqlarını söndürməyə qadirdir. Azərbaycan dünyəvi dövlət quruluşunu qoruyub saxlamaqla dövlətdin münasibətlərini hüquqi və elmi müstəvidə nizamlamağı bacarıb. Əgər biz bir dövlət və xalq olaraq bu nailiyyətlərə imza ata bilmişiksə, digər cəmiyyət və dövlətlər də müsbət nəticələr əldə edə bilərlər. Bəşər cəmiyyətinin və beynəlxalq təşkilatların bu məsələyə daha həssas və siyasi çalarlar olmadan yanaşmaları dünyamızda sülhün və əmin-amanlığın bərpasına böyük töhfələr verəcək və biz çalışmalıyıq ki, qeyd olunan proseslərin daha uğurlu şəkildə həyata keçirilməsi üçün İslam mədəniyyətinin potensialından düzgün istifadə olunsun.

**- Dünyada gedən mövcud proseslər Azərbaycanda necə qiymətləndirilir?**

- İlk növbədə dünyada gedən proseslərin təhlili düzgün formada aparılmalıdır. İslam dünyasında və ümumilikdə beynəlxalq arenada baş verən mənəvi böhran və s. dəyişikliklər diqqətlə izlənməli və aparılan analitik təhlillərdən düzgün nəticələr çıxarılmalıdır. Bu məsələdə xüsusilə gənclər diqqətli olmalıdır. Ekstremist qruplaşmaların din adı altında ölkəmizə müdaxilə edərək xüsusən gənclərimizi çirkin məqsədlərində alətə çevirməsinə və Azərbaycan gənclərinin bu məqsədlərə qurban getməsinə heç bir vəchlə imkan vermək olmaz. Hər kəs beynəlxalq aləmdə oynanan "bu böyük və təhlükəli oyunu" görməli və düzgün qiymətləndirməlidir. Bir daha unutmamaq lazımdır ki, mənəviyyatımız olan İslam dininin siyasiləşdirilməsi yolverilməzdir. Dünyanın qeyd olunan böhrandan xilas yolu da məhz bundadır.

**- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu istiqamətdə yaxın gələcəkdə daha hansı addımları atmağı düşünür?**

- İlk növbədə dövlətimizin dövlət-din münasibətlərinin istiqamətlənməsində tutduğu xətt davam etdirilməlidir. Daha öncə qeyd etdiyimiz kimi, bizim dini sahədə milli kadrlara ehtiyacımız var. Bu kadrların formalaşdırılması üçün milli-dini təhsil sistemi formalaşdırılmalıdır. Dünyəvilik prinsiplərinə əsaslanan, eyni zamanda, dinin elmi və ümumbəşəri mahiyyətini özündə ehtiva edən dini tədris sistemi Azərbaycanın multikultural dövlət siyasətinə əhəmiyyətli dərəcədə töhfə verə bilər. Qeyd olunan məsələ ilə bağlı milli mütəxəssislərimizin hazırlanması üçün yaxın gələcəkdə dini sahənin tamamilə nizamlanmasında müsbət nəticələr əldə etməyi düşünürük.

## "Milli-mənəvi dəyərlərimiz və müasir çağırışlar"



"Yeni Üfüq" Mənəvi İrsin Təbliği İctimai Birliyi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) dəstəyi ilə "Milli-mənəvi dəyərlərimiz və müasir çağırışlar" adlı növbəti tədbirini Qusar rayonunda keçirib.

Tədbirdə çıxış edən təşkilatın sədri Sevinc Əzimbəyli bildirib ki, Azərbaycançılıq ideyası müasirliyi və milli-mənəvi dəyərlərə sahib çıxmağı, eləcə də tolerantlığı özündə ehtiva edən ali dəyərdir. Tədbirdə Qarabağ Seyid Ocaqlarının rəhbəri, şərqşünas Seyid Camal Əzimbəyli bildirib ki, Azərbaycanın elə bir bölgəsi yoxdur ki, istər müharibə, istərsə də atəşkəs dövründə Qarabağın azadlığı uğrunda şəhid verməmiş olsun. Onun sözlərinə görə, Azərbaycanın müqəddəs şəhidlik məktəbi öz adət-ənənələrini mühafizə edən xalqımızın birlik və bərabərliyinin mübarək göstəricisidir: "Bu gün Azərbaycan gəncləri, Qusarın işıqlı cavanları hər zaman olduğu kimi indi də radikal və yad düşüncələrə qarşı barışmaz mövqe tutmalı, məmləkətimizin əsrlərdən gələn ənənəvi qardaşlığını gələcək nəsillərə ötürməlidirlər. Mən bunu cəsarətlə demək istəyirəm ki, ölkədə milli və dini tolerantlığın, eləcə də mədəni irsimizin həqiqi təəssübkeşi Prezident İlham Əliyevdir".

Tədbirdə Qusar rayon İcra Hakimiyyətinin nümayəndəsi Kamran Sədullayev, DQİDK-nin Quba şöbəsinin müdiri Eynulla Nurullayev mövzu ətrafında çıxış ediblər.

# Dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği çərçivəsində

**Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama əsasən, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (DQİDK) 2,5 milyon manat vəsait ayrılıb. Həmin maliyyə vəsaiti hesabına maarifləndirmə işinin aparılması məqsədilə Dövlət Komitəsinin dəstəyi ilə tədbirlər təşkil edilir.**

Bu qəbildən tədbirlər iyulun sonu-avqust ayında Bakı şəhəri Qaradağ rayonu Müşfiqabad qəsəbə məscidi dini icması, Cəlilabad şəhər "Cümə" məscidi və Aşurlu kənd məscidi dini icmaları, Zaqatala rayonu Sumaylı kənd məscidi və Göyəm kənd "Cümə" məscidi dini icmaları, Biləsuvar şəhər "Cümə məscidi" dini icması, Biləsuvar rayon Bəydilli kənd "Cümə məscidi" dini icması, Şəki rayonu İnçə kənd məscidi dini icması, Oğuz şəhəri "Cümə" məscidi dini icması, İsmayıllı şəhər "Cümə" məscidi dini icması, İsmayıllı rayonu Diyallı kənd məscidi dini icması, Masallı rayonu Hişkədərə kənd məscidi və Hacıtəpə kənd məscidi dini icmaları, Astara rayonu Şahağac kənd məscidi, Sığaloni kənd məscidi, Şüvi kəndi "Cümə" məscidi və Pensər kəndi "Hacı Teymur" cümə məscidi dini icmaları, Şabran rayonu Dağbilici kənd məscidi və Zeyvə kənd məscidi dini icmaları, Quba rayonu İkinci Nügədi kənd "Molla Hud" məscidi dini icması, Lerik rayonu Monidigah kənd məscidi dini icması, Lənkəran rayonu Separadi kənd məscidi, Şıxakəran kənd məscidi və Aşağı Nüvədi qəsəbə dini icmaları, Lənkəran şəhəri "Böyük Bazar" cümə məscidi dini icması tərəfindən, eyni zamanda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgə şöbələrinin Hacıqabul və Kürdəmir Rayon İcra Hakimiyyətlərinin birgə təşkilatçılığı ilə keçirilib.

"Narkomanlığa qarşı mübarizədə dindarların rolu", "Tolerantlıq və dini dözümlülük Azərbaycan milli kimliyinin ayrılmaz hissəsi kimi", "Zərərli vərdişlərlə mübarizədə dini və milli dəyərlərin rolu", "Gənclərimizin zərərli vərdişlərdən qorunması və vətənpərvərlik ruhunda tərbiyəsi", "Gənclər arasında dini maarifləndirmə kursunun təşkili", "İslamda vəhdətin qorunması və təbliği", "Gənclərimizin dini radikal təsirlərdən qorunması", "Ənənəvi İslam dəyərləri və adət-ənənələrimizin təbliği", "İslam dinində və cəmiyyətdə zərərli vərdişlərə münasibət", "İslam birlik dinidir", "İslam dinində məzhəblərarası vəhdət", "Milli-mənəvi dəyərlərimiz və gənclik" və s. mövzularda təşkil olunmuş tədbirlərdə Dövlət Komitəsinin rəhbər şəxsləri, əməkdaşları, müstəqil ekspertlər, təhsil işçiləri, dini icmaların üzvləri, ağsaqqallar, dindarlar, ziyalılar və gənclər iştirak ediblər.

Prezident İlham Əliyevin dini icmalara dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı maliyyə yardımının ayırması barədə Sərəncamını dövlətin dinə olan növbəti qayğısı kimi qiymətləndirən natiqlər əmin olduqlarını bildiriblər ki, dövlət başçısının bu qərarı dini icmaların fəaliyyətində aktivlik yaradacaq, layihələr çərçivəsində keçirilən tədbirlərdə cəmiyyəti narahat edən neqativ halların aradan qaldırılması üçün səy göstəriləcək, gənclərə İslam dini və milli-mənəvi dəyərlərimiz haqqında verilən ətraflı məlumat və izahatlar öz bəhrəsini verəcək. Qeyd olunub ki, bütün ölkə boyu həyata keçirilən layihələr çərçivəsində sağlam dini biliklərə söykənən maarifləndirmənin aparılması ilə yanaşı, İslamda vəhdətin qorunması və təbliği istiqamətində də işlər görüləcəkdir. Tədbirlərdə Azərbaycan xalqının ənənəvi dini və milli ənənələri, adətləri barədə geniş məlumat verilib, bildirilib ki, bu dəyərlərin qorunması və təbliğinin dini radikalizmlə mübarizədə son dərəcə vacibdir. Vurğulanıb ki, dini radikalizm heç bir cəmiyyətə fayda gətirmir, yalnız minlərlə günahsız insanın ölümü ilə nəticələnən faciələrə, ölkələrin xarabazara çevrilməsinə yol açır. Gənclərin ekstremist təmayüllü dini cərəyanlara qoşulmaması üçün milli-mənəvi dəyərlərə söykənən həqiqi dini dəyərlərlə bəslənməsi, dövlətinə bağlı, sədaqətli, vətənpərvər tərbiyə olunması önəmlidir.

Tədbirlərin sonunda dini icmalara ayırdığı diqqətə və qayğıya görə Prezident İlham Əliyevə və DQİDK-nın sədri Mübariz Qurbanlıya minnətdarlıq ifadə edilib.






















# "Dövlət və Din" ictimai fikir toplusu mükafatlandırılıb

***Avqustun 26-da Bakıdakı Gənclər Evində "Ortaq Dəyərlər" İctimai Birliyi "Kütləvi informasiya vasitələrində din mövzusu və dini maarifləndirmənin durumu" adlı "dəyirmi masa" keçirib.***

Birliyin sədri Aqil Camal bildirib ki, rəhbəri olduğu qurum bu ilin may-avqust ayları ərzində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Dövlətin din siyasətinin təbliği: kütləvi informasiya vasitələrində dini maarifləndirmə işi" mövzusunda layihə həyata keçirib: "Bu layihə cəmiyyət həyatında önəmli yeri olan dini dəyərlərin Azərbaycan toplumunda təbliğinin hansı əsaslar üzrə aparılmasını, dövlətin din siyasətinin təbliği vəziyyətini təhlil etməyi nəzərdə tuturdu. Həmçinin, Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurası ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) arasında imzalanmış memorandumdan irəli gələn əməkdaşlığa töhfə verməyi hədəfləyirdi".

A.Camal bildirib ki, layihə çərçivəsində 10 qəzet, 10 sayt və 5 yerli televiziya üzərində monitorinq aparılıb, ölkə mətbuatında dini maarifləndirmə işinin durumu öyrənilib. Həmçinin, layihə çərçivəsində dini, milli və mənəvi maarifləndirmə yönümündə çalışacaq ortaqdeyerler.com saytı yaradılıb.

Tədbirdə "Azərbaycan dövlətinin din siyasətini peşəkar səviyyədə təbliğ edən televiziya proqramı" nominasiyası üzrə İctimai Televiziyada yayınlanan "Din və Cəmiyyət" proqramı, "Azərbaycan dövlətinin din siyasətini peşəkar səviyyədə təbliğ edən mətbu orqan" nominasiyası üzrə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin "Dövlət və Din" ictimai fikir toplusu, "Mediada azərbaycançılıq, Azərbaycan milli ideologiyası və din mövzusunda davamlı yaradıcılığına görə" fəlsəfə doktoru Faiq Ələkbərov mükafatla təltif olunub.

"Dəyirmi masa"da çıxış edən İctimai Televiziyanın Elm və Təhsil departamentinin rəhbəri Zaur Mahmudov təmsil etdiyi qurumun dini maarifləndirməyə xüsusi diqqət yetirdiyini, efir siyasətində bu işi davam etdirəcəklərini bildirib.



DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri, "Dövlət və Din" jurnalının redaktoru Sadiq Mirzəyev çıxışında Dövlət Komitəsinin maarifləndirmə sahəsində aktiv fəaliyyətindən bəhs edib. Bildirib ki, dini maarifləndirmə DQİDK-nın fəaliyyət istiqamətlərindən biridir və o bu sahədəki işini təkcə təsisçisi olduğu nəşrlərlə məhdudlaşdırmır. Eyni zamanda, milli maraqlarımıza, mənəvi dəyərlərimizə zidd olan və radikallığı təbliğ edən dini qrupların qarşısını almaq üçün qabaqlayıcı tədbirlər də həyata keçirir. Bu məqsədlə Komitə tərəfindən Bakıda və regionlarda seminar-treninqlər, "dəyirmi masalar" və konfranslar keçirilir: "Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətləri modelinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurlu davamının nəticəsidir ki, hazırda ölkəmizdə dini durum sabitdir. Azərbaycanda radikal dindarların sosial dayaqları yoxdur. Ancaq bu təqdirəlayiq hal bizi arxayınlaşdırmamalı, fəaliyyətimizdə ətalətə səbəb olmamalıdır. Maarifləndirmə işini davamlı həyata keçirmək lazımdır".



İctimai TV-nin "Din və Cəmiyyət" proqramının aparıcısı Natiq Rəhimov qeyd edib ki, Azərbaycan həm qədim dini ənənələrin mövcud olduğu, dini dəyərlərin geniş yayıldığı ölkədir və o, fərqli dini cərəyanların, məzhəb və təriqətlərin qovşağında yerləşir: "Bu baxımdan, ölkəmizdə dini məsələlərə təkcə dövlətin, müvafiq dövlət qurumlarının deyil, vətəndaş cəmiyyəti institutlarının da həssas yanaşması zəruridir".

Tarixçi alimlər Dilavər Əzimli, Faiq Ələkbərov, Dövlət Komitəsinin əməkdaşı Saleh Aslanov və başqaları çıxışlarında Azərbaycanda dini ənənələr, Azərbaycan mütəfəkkirlərinin İslam dininə baxışları haqda fikirlərini bölüşüblər. Qeyd olunub ki, cəmiyyətimizə kənardan daxil olmağa çalışan radikal dini qruplara qarşı mübarizədə hər bir vətəndaşın, ictimai birliyin fəallığı vacibdir.

# Dini qurumların dövlət reyestr məlumatı

**Şəki rayonu Bideyiz kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 15 fevral 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1-221**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İsrafilov İsrail İbrahimxəlil oğlu, Hümmətov Şəfayət Əli - Məmməd oğlu, Kərimov Sərkər Əsmi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Xasiyev Canbul Həbillax oğlu, Məmmədov Xəqani Məzahir oğlu, Məmmədov Sənan Məzahir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 29 iyul 2015-ci il**

**Şəki rayonu Aydınbulaq kəndi**
**"Hacı Mir Ələkbərağa" məscidi dini icması**
**Qeydiyyat tarixi: 06 yanvar 2011-ci il**
**Qeydiyyat №-si: 100110A4-511**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abdulxalıqov Tacəddin Qaffar oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Pirimov Rizvan Nadir oğlu, Quluyev Kənan Nüsrəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 29 iyul 2015-ci il**

**Ağdaş şəhəri "Üç qovaq" məscidi dini icması**
**Qeydiyyat tarixi: 19 may 2010-cu il**
**Qeydiyyat №-si: 100110A3-368**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Gümüşov Cahangir Ələkbər oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Bəhərçinov Murad Yusif oğlu, Bəkirov Xamraz Tərlan oğlu, Məhərrəmov Adil Arif oğlu, Məmmədov Süleyman Yusif oğlu, Sadıqov Rahib Rəşid oğlu, Yusifov Aqil Mahir oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 12 avqust 2015-ci il**

**Kürdəmir rayonu Şıxımlı kəndi**
**"Hacı Camaləddin" məscidi dini icması**
**Qeydiyyat tarixi: 24 sentyabr 2010-cu il**
**Qeydiyyat №-si: 100110A4 – 495**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İbrahimov Camaləddin Ələddin oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Dadaşov Səbuhi Mehti oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. İbrahimov Camaləddin Ələddin oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Dadaşov Səbuhi Mehti oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 12 avqust 2015-ci il**

**Sabirabad rayonu Bulduq kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 24 aprel 2015-ci il**
**Qeydiyyat №-si: 100115C – 582**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abdullayev Mustafa Hüseyn oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Talıbov Əlheybət Talıb oğlu, İmanov Fəzail Fazil oğlu, Həsənov Emil Afət oğlu, Əhmədov Təhmiraz Müseyib oğlu, Həsənov Vasif Hacıbala oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdirlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 12 avqust 2015-ci il**

**Salyan rayonu Qarabağlı kəndi**
**"İmam Hüseyn" məscidi dini icması**
**Qeydiyyat tarixi: 07 may 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2–339**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həsənov Hüsni Budağ oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Xankişiyev Səməndar Səfərağa oğlu, Həsənov Adəm Budaq oğlu, Pəncəliyev Mayıs Marif oğlu, Həsənov Qəşəm Kirman oğlu, Şıxəliyev Xalid Bəyiş oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Həsənov Hüsni Budağ oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Xankişiyev Səməndar Səfərağa oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 12 avqust 2015-ci il**

**Sabirabad rayonu Mürsəlli kəndi**
**"İmam Hüseyn" məscidi dini icması**
**Qeydiyyat tarixi: 22 aprel 2010-cu il**
**Qeydiyyat №-si: 100110A2–307**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kərimov Abdulla Hilal oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Qəhrəmanov İbrahim Qəhrəman oğlu, Zeynalov Əlimuxtar Rəsul oğlu, Zeynalov Cabbar Əlicabbar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Kərimov Abdulla Hilal oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Musayev Zülfüqar Yahya oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 18 avqust 2015-ci il**

## Ləğv olunan dini icmalar

**Zaqatala rayonu Uzunqazmalar kəndi**
**"Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 03.12.2007-ci il**
**Qeydiyyat № 1307Z1-417**

Zaqatala rayonu Uzunqazmalar kəndi "Cümə" məscidi dini icmasının (1307Z1-417 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 13.06.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

**Qeydiyyata alınma tarixi: 30 iyul 2015-ci il**

**Cənub-şərqi Asiyada bu gün də kifayət qədər qəribə, hətta açıq-aşkar təhlükəli hesab edilən dini cərəyanlar yaranır. Koreya, Tayvan, Çin və Vyetnamda hakimiyyətin qeyri-ortodoksal dini etiqadları amansızca təqib etməsinə baxmayaraq, bu, yeni inancların yaranmasının qarşısını ala bilmir. Həmin cərəyanlardan 10-nu sizin diqqətinizə çatdırırıq:**



# Asiyada TƏHLÜKƏLİ 10 dini cərəyan



**1. Tanrıya Pərəstiş kultu (Çin)**

Tanrıya Pərəstiş kultunun lideri Lyu Caquo əvvəllər "İlahidən göndərilmiş kral" sektasının üzvü olmuş, ancaq sektanın rəhbəri Van Yanminin adi insan olduğunu bildikdən sonra ondan ayrılmışdır. O, belə inancların kökündə fırıldaqçılığın durduğunu tez bir zamanda anlayaraq, 1993-cü ildə kral sektasının bir sıra davamçılarını öz tərəfinə çəkmiş və şəxsi kultunu yaratmışdır.

Lyu iddia edirdi ki, o, Yer kürəsinin tanrısıdır. O, öz sektasından varlanmaq və ziyarətçilərlə intim əlaqəyə girmək məqsədilə istifadə edirdi.

Sonralar Lyunu 40000 ABŞ dollarını mənimsəməkdə və sektanın 10 üzvünü, həmçinin iki 13 yaşlı qızı zorlamada ittiham etdilər. Həbsdə olan Lyu asanlıqla dələduzluğunu boynuna alaraq bildirdi: "Əgər Tanrı olsaydım, həbsxanaya düşərdimmi?"

Qeyd edək ki, Lyu Caquo 1999-cu ildə ölüm hökmünə məhkum edilənədək Tanrıya Pərəstiş kultu Hunan əyalətində 10000-dən çox adamı təriqətə cəlb etməyə nail olmuşdu.

**2. Şinçeonci (Koreya)**

"İsa Kilsəsi, səyyar Məbədin vəhyləri" kimi də tanınan bu cərəyanın əsası 1984-cü ildə sabiq-yevangelist Li Man-hi tərəfindən qoyulmuşdur. Şinçeocinin "Yeni Göy və Yer" kimi tərcümə olunan əsas müddəası ondan ibarətdir ki, İsa hazırda Bibliyanın və vəhyin həqiqətini dərk etdiyini söyləyən Linin vücuduna daxil olmuş ruhi mahiyyətdir. Li iddia edir ki, o, İsanın yerinə gəlmiş peyğəmbərdir. Bu koreyalı dünyanın artıq məhv olduğunu, bütün insanların axirət həyatı yaşadığını, buna görə də, əbədi yaşayacaqlarını təbliğ edir və inandırır ki, bütün digər kilsələr iblisin nəzarəti altındadır.

Şinçeonci öz davamçılarını İncil mətnlərinin təhrif edilmiş izahına inandırır, həmçinin onlarla mütəmadi olaraq yarımhərbi gecə yığıncaqları keçirir. Kult özünə yeni üzvlər cəlb etmək üçün hər cür üsula əl atır. Məsələn, o, ilk baxışdan



sakit və dinc görünən mitinqlər, məzəli fleşmoblar, pulsuz Koreya dili dərsləri və əyləncə gecələri təşkil edir. Əslində isə bütün bunların arxasında "peyğəmbəri" vergi ödənişindən boyun qaçırmaqda və yeniyetmələrə qarşı cinsi zorakılıqda ittiham olunan və dinsizlərin məhv edilməsinə çağıran kult dayanır.

**3. Quan İnin Metodu (Tayvan)**

Bu dini hərəkat əslən Vyetnamdan olan və özü özünü Ali Usta adlandıran Çinq Hay tərəfindən təsis edilmişdir. Quan İnin davamçıları Tanrının varlığını dərk etmək üçün daxili işığa və daxili səsə əsaslanan meditasiyaları təcrübədən keçirirlər. Onlar öz fəaliyyətlərini dünyada ən böyük vegetarian biznesi sayılan "Loving Hut" beynəlxalq restoranlar şəbəkəsi ilə pərdələyirlər.



**4. Tanrının Kilsəsi - Ümumdünya Missiya Cəmiyyəti (Koreya)**

Bu sektanın davamçıları hesab edirlər ki, İsanın ruhu An Sanq-Honq adlı bir adamın vücuduna köçmüşdür, Jan Hil-Ca adlı qadın isə "Tanrının Anasıdır". Onlar



bildirirlər ki, Yerdəki ailə sistemi səmavi ailə sisteminin əksi və kölgəsidir və Səmavi Ata (An), Səmavi Ana (Jan), həmçinin qardaş və bacıların (digər bəşəriyyət) mövcud olduğunu iddia edirlər. Tənqidçilərin fikrincə, bu kult ailələri məhv etmək üçün beyinlərə təsir göstərmək taktikasından istifadə edir.

**5. İsa Səhər Ulduzu (Koreya)**

Kultun yaradıcısı Çon Men Sok İsanın xilaskarlıq missiyasını yerinə yetirə bilmədiyini, həqiqi xilaskarın özü olduğunu irəli sürərək 1970-ci ildə təmizlənmə rituallarına əsaslanan İsa Səhər Ulduzu kultunun əsasını qoymuşdur. Onunla intim əlaqə sayəsində bütün günahların silinəcəyini təbliğ edərək Çon yüzlərlə koreyalı qadınla münasibətdə oldu. Cazibədar qızları universitetlərdən seçərək sosial klublar, idman turnirləri və Bibliyanı öyrədən kurslar vasitəsilə aldadıb yığırdılar.

1999-cu ildə kütləvi informasiya vasitələrində zorlamalar haqqında ittihamlar dərc edilməyə başlayanda Con Koreyadan qaçdı. O, növbəti 10 ili Yaponiyada, Honkonq və Tayvanda gizlənərək öz əməllərinə davam etdi. Lakin 2008-ci ildə Çində ələ keçirildi və Seulda 6 il azadlıqdan məhrumetmə cəzasına məhkum olundu.

**6. Vanq Çu (Vyetnam)**

Rəsmi ateist mövqeyi nümayiş etdirən Vyetnam hökuməti uzun müddət ölkədə xaçpərəstlərə zülm etmişdir. Bu irtica Vanq Çu sektası kimi yeni qəribə dini hərəkatların yaranmasına gətirib çıxarmışdır. Onun banisi və "məsihi" Çjun Çanq



Ka (Tu Cenq Çen kimi də tanınır) deyirdi ki, o, möcüzələr göstərmək iqtidarındadır və hmonq-xristian (hmonqlar müasir Çin, Vyetnam, Laos və Taylandın dağlıq ərazilərindən olan etnik qrupdur) dövlətini yaratmaq uğrunda mübarizə aparırdı. Nəticədə, hökumət 2011-ci ildə hmonqları narkotik qaçaqmalçılığında, torpaqların mənimsənilməsində, ətraf mühitin korlanmasında və hökumət əleyhinə fəaliyyətdə ittiham edərək sektanı dağıtdı. Onun liderlərindən bəziləri edam olundu. Lakin sekta fəaliyyətini gizli şəkildə davam etdirməkdədir.

**7. Danhaq (Koreya)**

Əsası Li Sın Qoyn tərəfindən qoyulmuş Danhaq təlimi Koreyada və bütün dünyada 160-dan artıq yoqa və tay-çi mərkəzinə malikdir. Onun banisi özünü İlçi, yəni "həqiqəti göstərən barmaq" adlandırır. Qoyn iddia edir ki, fövqəltəbii gücə malikdir və "beyin tənəffüsünü" - tay-çi, masaj və meditasiya vasitəsilə mənəvi aydınlanma və təbii şəfa tapma prosesini öyrədir. Tədricən tədris proqramlarının qiyməti artır, davamçılar isə məşğələlərin haqqını ödəməyə və müalicəvi məhsullar və kitablar almağa məcbur edilirlər. Sadiq davamçılar bəzən min dollarlarla vəsait ödəyirlər. Bu kultun daşıyıcıları biliyin fiziki ağrı nəticəsində əldə oluna biləcəyi barədə mif uydururlar.



**8. Qüdrətli Tanrı Kilsəsi (Çin)**

Sektanın əsası 25 il bundan əvvəl, 2001-ci ildə ABŞ-a qaçmış keçmiş professor Çjao Veyşanem tərəfindən qoyulmuşdur. Bu dinə yeni girənləri cəlb etmək üçün pul, hədiyyə və intim xidmətlərdən istifadə olunur, daha sonra isə onlardan ianələr toplanılır. Kultun üzvlərindən öz



ailələrindən imtina etmək tələb olunur. Həmçinin Qüdrətli Tanrı Kilsəsi Kommunist Partiyasının üzvlərinin qətllərinə təşviq edirlər.

**9. Sun Çi-Li Assosiasiyası (Tayvan)**

Bu qrupun dini lideri Sun Çi-Li iddia edir ki, möcüzəvi təsir gücünə malikdir və planetin istənilən nöqtəsində peyda olmaq üçün özünün mənəvi "doppelqangerini" (romantizm dövrü ədəbiyyatında "insanın oxşarı" mənasında işlədilmişdir) yarada bilər. Bunu sübut etmək üçün Sun



bütün planet üzrə göy qurşağı və nurlu işığın fonunda havada pərvazlandığını əks etdirən foto-şəkillərini nümayiş etdirir. Sun bu fotoları davamçılarına satmaqla çox dəbdəbəli həyat yaşayır və daşınmaz əmlak əldə edir.

1996-cı ildə bu fotoların saxta olduğu sübuta yetirildi və Çi-Li dələduzluqda ittiham edildi. O, 3 milyard Tayvan dollarını (təxminən 100 milyon ABŞ dolları) götürərək aradan çıxdı. Sonralar ona bəraət verildi. Belə ki, Ali Məhkəmə onun dini fəaliyyətinin Konstitusiyaya zidd olmadığı barədə qərar qəbul etdi.

**10. Dhammakayya (Tailand)**

Bu hərəkat son bir neçə onillik ərzində sürətlə inkişaf etmişdir. Bu kult uçan naməlum obyekt (UNO) formasında olan



və içərisində qızıl və titan təbəqə ilə örtülmüş 300 min Budda heykəlinin yerləşdiyi məbədi ilə məşhurdur. Burada 3000-ə yaxın rahib yaşayır, hər gün Dhammakayya hərəkatının on minlərlə üzvü üçün kütləvi ibadətlər təşkil olunur. Kult maliyyə fırıldağı, bidətçi təlimlər, yalançı möcüzələr və dini liderləri Phra Dhammaçayonun şəxsiyyətinə pərəstişə görə tənqidlərə məruz qalır.

***Hazırladı: Gülnar SEYİDLİ***

# Xocalı faciəsindən bəhs edən "Sonsuz Dəhliz" filmi Milan festivalında




Müstəqil litvalı rejissor Aleksandras Brokasın rejissoru olduğu "Endless Corridor" (Sonsuz Dəhliz) sənədli filmi daha üç beynəlxalq nominasiyaya layiq görülüb. Trend-in Avropa Azərbaycan Cəmiyyətinə istinadən verdiyi məlumata görə, film rəsmi olaraq bu ilin noyabr ayında İtaliyanın Milan şəhərində keçiriləcək "Milan IFF 2015" kino festivalında nümayiş üçün seçilib. Film festivalda aşağıdakı nominasiyalarda iştirak edəcək: "Ən yaxşı qısametrajlı sənədli film", "Sənədli filmdə ən yaxşı kinematoqrafiya" və "Ən yaxşı montaj olunmuş sənədli film".

"Sonsuz Dəhliz" filmi bu il beynəlxalq kinofestivalların diqqət mərkəzində olub. ABŞ-da keçirilən "Accolade Qlobal Film Competition" müsabiqəsində "Best of Show" mükafatını aldıqdan sonra bu film daha iki nüfuzlu mükafata layiq görülüb.

Belə ki, iyulun 10-da Madrid Tenerife Beynəlxalq Film Festivalları "Sonsuz Dəhliz" filmini "Ən Yaxşı Sənədli Film" və Aleksandras Brokası "Ən Yaxşı Sənədli Film Rejissoru" nominasiyası üzrə qalib elan edib.

Filmin nümayişi Türkiyənin "Kanal 24", "CNN Türk", Albaniyanın Milli Televiziyasında və İsrailin"Channel 1" televiziya kanalında da baş tutub.

"Sonsuz dəhliz" filminin "Xocalıya ədalət!" təbliğat-təşviqat kampaniyası çərçivəsində bu ilin fevral ayında İstanbul, Ankara, Roma, Vilnüs, London, Paris, Dublin, Berlin, Bern, Lüksemburq kimi şəhərlərdə təqdimatı keçirilib. İngilis dilində çəkilən film Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycan, türk, fransız, italyan və alman dillərinə subtitrlərlə tərcümə edilib, rus dilində isə dublyaj olunub.

Filmin premyerası ötən il iyulun 1-də Londonda Britaniya Film və Televiziya İncəsənəti Akademiyasında (BAFTA) keçirilib. Ekran əsərinin prodüserləri Aleksandras Brokas (Litva) və nüfuzlu "Grammy Award" mükafatçısı Cerald Rafşundur (ABŞ).

***İslam maarifi ilə yaxından tanış olan hər kəs bu dində ağıl deyilən ilahi qüvvəyə nə dərəcədə əhəmiyyət verildiyini çox yaxşı anlayır. Lakin təəssüflə qeyd etməliyik ki, bir müsəlman kimi İslam dinini öyrənən mərhələdə ağıl və düşüncədən istifadə edir, tövhid, nübüvvət və axirət aləmi kimi həssas və təməl prinsiplərin sübutu üçün kifayət qədər əqli dəlillərdən bəhrələnirik. Dini qəbul etdikdən sonra isə ağılı möhürləyib, bir kənara atır və müxtəlif mövzuların bəyan və sübut edilməsində, eləcə də müxtəlif sahələrdə fikir formalaşdırarkən bir sıra uydurma və zəif rəvayətlərə uyuruq. Halbuki müsəlman olaraq bu ilahi qüvvəni hər zaman həyatımızın bütün sahələrində hakim etməliyik.***



# İSLAMIN AĞILA VERDİYİ DƏYƏR

**"Ağıl" ifadəsinin anlamı**

"Ağıl" ərəb sözü olub, lüğətdə "maneçilik və ya hər hansı bir şeyi saxlamaq və qarşısını almaq" mənalarını bildirir.

İnsan ağlı ilə özünü xoşagəlməz rəftar və sözlərdən saxladığı üçün ona "aqil" (ağıl sahibi, ağıllı) deyilir. Bütün bunlar nəticə etibarilə, "düşünmək", "mərifət" və "dərk etmək", həmçinin, "cəhalət və nadanlığın ziddi" kimi mənaları özündə ehtiva edir.

**Quranın ağıla verdiyi dəyər**

İslam dini baxımından ağlın məqamını aydınlaşdırmaq üçün öncə bu dinin önəmli qaynağı sayılan Qurani-Kərimə nəzər salmaq zəruridir.

Qurani-Kərim ağıl və düşüncə mövzusuna xüsusi diqqət yetirmiş, müxtəlif ayələrdə bu mövzuya toxunmuşdur. Belə ki, Müqəddəs Kitabımızda "əql" (ağıl) ifadəsi müxtəlif ifadələri ilə birgə 51 dəfə, "təfəkkür" (düşünmək) ifadəsi müxtəlif ifadələri ilə birgə 21 dəfə, "tədəbbür" (düşünmək, fikirləşmək) ifadəsi 4 dəfə, "Ülul-əlbab" (ağıl və düşüncə sahibləri) ifadəsi 16 dəfə, "fiqh" (dərk etmək, başa düşmək və düşünmək) ifadəsi isə müxtəlif ifadələri ilə birgə 19 dəfə işlənmişdir. Ümumi hesabla Quranda 111 dəfə "ağıl", "düşüncə" və "təfəkkür" kəlmələrindən istifadə olunmuşdur ki, bu da az rəqəm sayılmır və dinimizin haqqında danışdığımız mövzuya xüsusi münasibətinin göstəricisidir.

Sonuncu Səmavi Kitabın bir sıra ayələrinə əsasən, ilahi vəhyin nazil olmasında əsas hədəf insanların onun barəsində düşünməsi və ağıl işlətməsindən ibarətdir: **"Allah sizə Öz ayələrini, (hökmlərini) bu qaydada aydınlaşdırır ki, düşünüb anlayasınız (əqlinizə batsın)"** (Bəqərə, 242); **"(Ey Məkkə əhli!) Biz onu ərəbcə bir Quran olaraq nazil etdik ki, (mənasını) anlayasınız"** (Yusif, 2).

Əksəriyyəti ağıl işlətmədiyinə görə məzəmmət edən də Qurandır: **"Həqiqətən, əgər sən (Məkkə müşriklərindən): "Göydən yağmur endirib quruduqdan sonra onunla yerə təzədən can verən kimdir?" – deyə soruşsan, onlar mütləq: "Allahdır!" – deyə cavab verəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların əksəriyyəti dərindən düşünməz! (Müşriklərin xeyirlərilə zərərlərini bir-birindən ayırmağa ağlı çatmır. Onlar cəhalətləri üzündən belə güman edirlər ki, bütlər onları haqq olan Allaha yaxınlaşdırır)"** (Ənkəbut, 63).

Qurana görə, əksəriyyət və çoxluq haqq və həqiqət meyarı sayılmır. Çünki əksəriyyət adətən öz ağlı və düşüncəsi ilə hərəkət etmir, əksinə digər şəxs və dairələrin istəyi və fikiri əsasında müxtəlif mövzularda mövqe nümayiş etdirirlər.

Qurani-Kərim dönə-dönə müsəlmanları birliyə dəvət etmiş, bu barədə xüsusi təkid göstərmişdir və istər müsəlmanlar, istərsə də qeyri-müsəlmanlar arasında mövcud olan çəkişmə və ixtilafların əsas səbəbini onların ağıl işlətməməsində görmüşdür: **"Onlar (münafiqlərlə yəhudilər) hamılıqla sizə qarşı ancaq möhkəm şəhərlərdə (kəndlərdə), yaxud divar arxasında (qala içərisində) olarkən döyüşərlər (başqa şəraitdə sizinlə vuruşmağa cürət etməzlər). Onların öz aralarındakı vuruşmaları (və düşmənçilikləri) isə çox güclüdür. (Ya Peyğəmbər!) Sən onların əlbir olduqlarını güman edirsən, lakin onların qəlbləri dağınıqdır. Bunun səbəbi onların ağılsız bir qövm olmalarıdır"** (Həşr, 14.)

Adətən, biz müsəlmanlar həmin ayəyə əsaslanıb, inadkar və azğın kafirlər arasında ciddi ixtilaf və ziddiyyətlərin olması barədə danışır və beləcə, özümüzü rahatlatmağa çalışırıq. Lakin əfsuslar olsun ki, bu gün İslam ümməti daxilən bir-biri ilə zidd və müxalif mövqedə durduğuna görə onlar da məlum ayənin qınaq obyektinə çevrilmişdir. Müsəlmanlar arasında bir-birinin qanını halal bilənlər isə sözün əsil mənasında İslam dünyasının ağrılı yeridir.

Digər tərəfdən Müqəddəs Kitabımızda ağıl sahibləri üçün ilahi müjdə verilmiş, onların üstün məqamından danışılmışdır: **"...(Ya Peyğəmbər!) Bəndələrimə (Cənnətlə) müjdə ver! O kəslər ki, sözü (öyüd-nəsihəti) dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!"** (Zumər, 17-18).

Quranın ağıl və düşüncə ilə bağlı çoxsaylı ayələrini nəzərdən keçirərkən insanın diqqətini cəlb edən məqamlardan biri də Allah-Təalanın bu səmavi kitabın heç bir ayəsində günahkar, nadan, kafir və azğın insanlar barədə "ağılsız" kəlməsini deyil, "ağıl işlətməyənlər" ifadəsini istifadə etməsidir. Çünki fiziki baxımdan sağlam olan hər bir insan ağıl və şüura malikdir. Burada əsas məsələ onun işə salınıb-salınmamasından ibarətdir.

İslam dininin ikinci önəmli qaynağı sayılan sünnədə (hədis və rəvayətlərdə) də ağıl və düşüncəyə böyük dəyər verildiyinin şahidi oluruq. Əldə olan hədislərin bəzisində ağıl və düşüncə İslam dininin əsas qaynaqlarından biri kimi təqdim edilmişdir. Məhəmməd Peyğəmbər (s) bu barədə buyurmuşdur: "Məndən sizə bir hədis çatdıqda onu Allahın Kitabı (Quran) və ağıllarınızın höccəti ilə müqayisə edin. Onlarla (Quran və ağıl ilə) müvafiq olduqda həmin hədisi qəbul edin, əks təqdirdə isə onu divara vurun (kənara qoyun!)" ("Təfsiru Əbil-Fütuh Razi", 5/368).

Həmçinin rəvayətlərdə ağıl və düşüncə Allah-Təalanın bəndələri üzərində olan höccəti və sübutu kimi təqdim edilmişdir. İmam Sadiq (ə) bu barədə buyurmuşdur: "Allah-Təalanın bəndələri üzərində olan höccəti (sübutu, dəlili) Peyğəmbərdir. Bəndələrlə Allah-Təala arasında olan höccət isə ağıldır" ("Üsuli-kafi", Şeyx Küleyni, 1/25/22).

İmam Kazim (ə) isə söyləmişdir: "Həqiqətən də, Allahın insanlar üçün iki höccəti vardır: Onların biri aşkar, digəri isə gizlindir. Aşkar höccət (ilahi) elçilər - peyğəmbərlər və imamlar, gizlin höccət isə ağıldan ibarətdir" ("Üsuli-kafi", Şeyx Küleyni, 1/16/12).

Hədislərin müəyyən bir qismində insanların üstünlüyünün namaz, oruc və həcc kimi çoxlu ibadətlə deyil, əsasən ağıl və düşüncə meyarı ilə təyin edilməsi bəyan olunmuşdur. Əziz Peyğəmbərimiz (s) bu barədə belə buyurmuşdur: "Çoxlu namaz qılan və çoxlu oruc tutan bir kəsi müşahidə etdikdə ağıl və düşüncəsinə fikir verməden onunla fəxr etməyin!" ("Üsuli-kafi", Şeyx Küleyni, 1/26/28).

Rəvayətlərdə keçdiyinə görə, imamların (ə) yanında müəyyən şəxslərin çox ibadət etdiyi barədə danışıldıqda onlar bu təriflərə uymadan birbaşa həmin şəxslərin ağıl və düşüncə səviyyəsi barədə soruşmuşlar. İshaq ibn Əmmardan belə bir hadisə nəql olunur: "İmam Sadiqə (ə) dedim: "Bizim qonşumuzda çoxlu namaz qılan, çoxlu sədəqə verən və çoxlu həcc ziyarətinə gedən bir şəxs var. O, yaxşı adamdır". İmam Sadiq (ə) soruşdu: "Onun ağlı necədir?" Cavab verdim: "O, ağıllı (düşüncəli) bir şəxs deyil!" İmam Sadiq (ə) söylədi: "Elə isə onun bu yaxşı əməlləri yuxarı qalxmaz (qəbul olmaz)" ("Üsuli-kafi", Şeyx Küleyni, 1/24/19).

Bütün bunlar İslam dininin ağıl və düşüncəyə verdiyi böyük dəyər və xüsusi önəmin göstəricisidir. Lakin unutmayaq ki, ağıl və düşüncə həmişə və hər sahədə mütləq əhatəyə malik deyil. Ağıl İslam dininin əsas qaynağı olsa da, mütləq mənada təsəvvür edilməməlidir. Əslində ağıl külli mövzuların çözülməsi və dərk edilməsində əsas rola malikdir. Lakin adətən Şəriət hökmlərinin xırdalıqlarında susur. Bundan əlavə, ağıl və düşüncə ölüm, bərzəx aləmi, ruh, Allah-Təalanın müqəddəs zatı, mələklər və s. bu kimi həqiqətlər barədə də yetərsizdir. Onların külliyyatını təsdiq etsə də, xırdalıqları barədə kamil və hərtərəfli nəticəni təqdim etməkdən acizdir.

Şübhəsiz, ağıl mütləq mənada hər bir mövzunun dərk edilməsi və çözülməsinə qadir olsaydı, ilahi peyğəmbərlər və elçilərin göndərilməsinə, həmçinin səmavi kitabların nazil olmasına ehtiyac qalmazdı.

***İlqar İSMAYILZADƏ,***
***ilqar_ismayilzade@yahoo.com***

# Qurani-Kərim və fəlsəfi təfsir

(II yazı)

***"Hər bir kəs (canlı) ölümü dadacaqdır..."***

(Ali-İmran, 185)



**Hamımız ölümün nə demək olduğunu başa düşürük. Əlbəttə, ölümdən sonra nə baş verdiyini bilməsək də, ümumi olaraq onun necə olduğunu müəyyən mənada dərk edirik.**

**Hər mövzunu müxtəlif elmlər fərqli şəkillərdə izah edə bilər. Eləcə də "ölüm" haqqında həm Quranda, həm hədislərdə, həm də tibb elmində bəhs olunmuşdur. Bunların hər biri ölümün mahiyyətini öz baxışından açıqlamağa çalışmışlar. Amma Quran və hədislərin bu mövzuya yanaşma prinsipi, tibb elminin yanaşma prinsipindən fərqlənir. Belə ki, tibbin ölüm haqqındakı axtarışları insanın bədəni ilə bağlıdır, yəni tibb elmi ölüm zamanı nə baş verdiyini araşdırmağa çalışır. Halbuki Quran və hədislər ölümü xatırlatmaqla insanı Allaha yaxınlaşdırmaq məqsədi daşıyır. Quran ölümün mahiyyəti haqqında insanın axirətinə heç bir fayda verməyəcək şəkildə söhbət açmır. Əksinə, insana bir gün Uca Yaradanın qarşısına çıxacağını, buna görə də özünü düzəltməli olduğunu aşılamaq istəyir.**

**Allah-Təala insanlara Quranda ölümü dəfələrlə xatırlatmışdır. İslam alimləri də öz söhbətlərində ölümün mahiyyəti barədə izahlar verməyə çalışmışlar. Yaxud da şairlər öz şeirlərində ölümdən söhbət açmışlar. Hamısı eyni mövzudan danışsa da, hərənin öz dinləyicisi var. Bəzi şəxslərə Quran ayələri, bəzilərinə hədislər, bəzilərinə şairlərin şeirlərindəki könül oxşayan sözlər, bəzilərinə isə məhz hansısa alimin sözləri daha təsiredici olur.**

**Biz də bu yazıda ölümə fəlsəfi izah verməyə, onun mahiyyətini fəlsəfi baxımdan açmağa çalışacağıq.**

### Sədrül-Mütəallihin Şirazi (1572-1640)

İslam dünyaya müxtəlif alimlər bəxş etmişdir. Bu alimlər özlərini İslam elmlərinin müxtəlif sahələrində sınamışlar. Onlar müəyyən mövzulara fərqli aspektlərdən yanaşaraq, insana özünü, Yaradanını tanıtdırmağa, dünyadakı vəzifəsini, məqsədini xatırlatmağa çalışmışlar. Bu böyük alimlərdən biri də təqribən 4 əsr bundan öncə yaşamış Sədrül-Mütəallihindir. Elm aləmində "Molla Sədra" kimi tanınan bu böyük şəxsiyyət bir çox əsər qələmə almışdır. Onlardan "Əş-Şəvahidür-Rübubiyyə", "Təfsiri-Quran", "Təfsiri-Üsuli Kafi" və s. kimi fəlsəfi əsərlərin adlarını çəkmək mümkündür. Amma mütəfəkkir dünyada özünün yeni nizamı əsasında yaratdığı "Hikməti-Mütəaliyyə" ("Əsfar" kitabı, "4 səfər") fəlsəfəsi ilə tanınır. O, fəlsəfəyə yeniliklər gətirərək varlığı, aləmi yeni nizamda izah etmişdir.

### "Substansiya" və "Aksidensiya"

Allahdan başqa yaradılmış bütün "mümkün varlıq"lar iki qismə bölünür: substansiya və aksidensiya. Bəzi varlıqların mövcud olmaları, yaradılmaları üçün başqa varlıqlara ehtiyacları yoxdur, bəzilərinin isə var. Məsələn, insan, ağac, heyvan və digərlərinin yaranması üçün başqa varlıqlara ehtiyac yoxdur. Əlbəttə, bu ehtiyacsızlıq mütləq ehtiyacsızlıq deyil. Bu, aksidensial varlıqların mövcud olmalarında başqa varlıqlara duyduqları ehtiyac müqabilində başa düşülən "ehtiyacsızlıqdır". Aksidensial varlıqlar (aksidensiya) isə başqa varlıqlara ehtiyacı olan varlıqlardır. Məsələn, rəng cisim olmasa mövcud ola bilmir, cisimdən müstəqil surətdə rəng yoxdur. Qorxu da insan (və ya heyvan) olmadan var ola bilməz, insan olmalıdır ki, qorxu da olsun. Həmçinin şadlıq, sevinc, istək, nifrət və s. kimi hisslər də. Gördüyümüz kimi, bu cür varlıqlar (aksidensiyalar) başqa varlıqlar olmadan mövcud ola bilmirlər (bu kimi varlıqları sifət və hal da adlandırmaq olar). Beləliklə, mövcudluqlarında müstəqil olan varlıqlara substansiya, asılı varlıqlara isə aksidensiya deyilir.

Molla Sədra və "substansial hərəkət"

"Substansial hərəkət" nəzəriyyəsi ilk dəfə böyük İslam filosofu Molla Sədra tərəfindən irəli sürülmüşdür. Ona qədərki filosoflar hərəkətin yalnız aksidensiyalarda mümkün ola biləcəyini qəbul edirdilər. Məsələn, almanın rəngi yaşıldan başlayaraq qırmızıya tərəf hərəkət edir, bir hadisə zamanı insanın qorxusu daha da şiddətlənə, yaxud sevinci arta bilir və s. Göründüyü kimi, burada dəyişmə, yaxud hərəkət aksidensiyalarda baş verir. Amma filosoflar bir şeyin zatının daxildən dəyişə bildiyini, hərəkət etdiyini qəbul etmirdilər. Buna görə də substansiyada hərəkət mümkün deyildi. Onların fikrincə, "Bir şeyin hərəkət etməsi üçün həmin şeyin zatı eyni ilə qalmalıdır. Əgər bir şeyin zatı dəyişirsə, bu zaman hər an dəyişməkdə olan bu varlıq vahid bir şey olaraq qalmır ki, "bu şey hərəkət edir" – deyə bilək. Məsələn, bir cisim A nöqtəsindən B nöqtəsinə hərəkət edirsə, bu zaman o, öz varlığını saxlamalıdır. Fərz etsək ki, bir cismin varlığı hər an dəyişməkdədir, onda sual olunur ki, burada A-dan B-yə hərəkət edən nədir? Hərəkətin şərtlərindən biri budur ki, bir şey olsun, vahid bir şey hərəkət etsin. Yaxud da tutaq ki, ağacdakı alma hər an zatən dəyişməkdədir, onda rəngi dəyişən meyvə hansı meyvədir? Ağacda alma hər an dəyişməkdə olduğu halda, biz deyə bilmərik ki, bu almanın rəngi yay fəslinə doğru getdikcə yaşıldan qırmızıya doğru dəyişir. Çünki belə olan halda hansı almadan söhbət gedir? Axı hər an yeni alma ilə üz-üzəyik".

Amma Molla Sədra fəlsəfi dəlillərlə sübut etmişdir ki, aksidensiyalarda hərəkət olduğu kimi, substansiya da hərəkət var. O, məsələ ilə bağlı müxtəlif dəlillər gətirsə də, biz yalnız birini qısa şəkildə qeyd edəcəyik. Bu da alimin demək istədiyi mənaya yalnız bir aspektdən baxış olacaq.

Molla Sədra bildirmişdir ki, "Əslində almanın rənginin dəyişməsi, yaxud yaşıldan qırmızıya doğru hərəkət etməsi onun zatının, substansiyasının daxildən dəyişməsindən, hərəkətindən irəli gəlir". Fərz edək ki, "zatı etibarilə iki eyni" olan substansiya vardır. Bu zaman bunlardan birinin aksidensiyası ilə digərinin aksidensiyası eyni olmalıdır. Lakin bir substansiya üçün müxtəlif aksidensiyalar ola bilər. Çünki aksidensiya substansiyanın "halı", "vəziyyəti", "sifəti"dir. Aydındır ki, hər cəhətdən tam eyni olan iki şeyin müxtəlif halları ola bilməz. Hətta fərz etsək ki, (qeyri-mümkün olsa belə) iki məkanda iki tam eyni cisim vardır, bu zaman onların bütün xüsusiyyətləri də eyni olmalıdır. Bunun fəlsəfi izahı olmasına baxmayaraq, sadə məntiqlə də başa düşmək mümkündür. Molla Sədra deyir ki, bir substansiyanın aksidensiyaları onun törətdiyi, yaxud ondan törəyən fenomenlərdir. Buna görə də iki eyni nomendən (bir şey) elə eyni fenomen (hadisə, sifət) də törəməlidir. Deməli, "bir" şeydən iki müxtəlif zamanda iki müxtəlif şey törəyirsə, bu o deməkdir ki, həmin şeyin zatında dəyişiklik baş vermişdir, onun zatı bu iki müxtəlif zamanda iki müxtəlif formaya düşmüşdür. Yəni daxilində, zatında, substansiyasında hərəkət baş vermişdir.

Məsələn, insan qorxu içindədirsə, burada insan substansiya, qorxu isə aksidensiyadır və bu aksidensiya onun "halı"dır. Məlumdur ki, insan iki fərqli zamanda eyni halda ola bilməz. İnsanın zatında dəyişiklik baş verməsə, onun halı dəyişə bilməz. Biz heç vaxt qəbul etmirik ki, qorxu içində olan insan sevinəndə tamamilə, yəni bütün varlığı və halları ilə eyni insandır. Bu, əslində o deməkdir ki, insan hər an müəyyən halda olursa, elə bu müxtəlif hallara düşmək, onun zatında, az da olsa, müəyyən prosesin, dəyişikliyin getməsi deməkdir. Yaxud, əgər bir şəxsin rəngi qızarmışsa, bu o deməkdir ki, həmin insan hazırda əsəbidir, əgər saralmışsa, deməli, ya qorxmuşdur, ya da xəstədir. Məlumdur ki, hər iki halda onun daxilində dəyişilmə getmişdir. Elə buna görə də bəzən bir şəxsdən gözləmədiyimiz hərəkət gördükdə, bizə qəribə gəlir və ona dəyişdiyini deyirik. Bizim bu cür yanaşmamız onu göstərir ki, biz özümüz də bilmədən insanın daxildə, zatda, substansiyada dəyişikliyini, hərəkət etməsini qəbul edirik. Əgər insanın rəngi dəyişmişsə, demək, onun zatında (substansiyasında) dəyişiklik olmuşdur və bu substansial dəyişiklik özünü aksidensiyada (rəngdə) büruzə vermişdir.

### "4-cü ölçü" və "Ölüm"

Molla Sədra substansial hərəkətlə göstərməyə çalışmışdır ki, hazırda yaşadığımız maddi aləmin 4-cü ölçüsü də var. Maddi varlıqlar zamandan asılı olduğu üçün onların daxilində hər an dəyişilmə var, onlar hərəkətdədirlər. Zaman elə hərəkətdən törəyir. Zamanı belə tərif edirlər: "Zaman hərəkətin miqdarıdır". Elə buna görə də deyilir ki, mücərrəd aləmdə hərəkət olmadığı üçün zaman yoxdur. Bu nəzəriyyəyə əsasən, bədənimiz hər an dəyişməkdədir. Yəni bədənimizin eni, uzunu, hündürlüyü olduğu kimi, bir də ağılla dərk olunan ölçüsü var. Yalnız tam sabit, dəyişməz (konstant) olan cisim 3 ölçülüdür. Çünki bu zaman qarşımızda bir mövcud var və yalnız bu mövcuda nəzər saldıqda 3 ölçü dərk olunur. Amma əgər bir şeyin zatı hər an hərəkətdədirsə, o zaman zatın hərəkətinin uzunluğunu da yeni bir ölçü götürə bilərik. Sanki bir şeyə "zaman boyunca dartılmış hal"ında baxırıq. Əlbəttə, bunu dərk etmək üçün bəlkə də uzun zaman lazımdır. Amma əsas mətləb bundan ibarətdir ki, biz bədənimizin hərəkətini zatən müşahidə edirik. Özü də bu hərəkət süquta doğru gedir. Körpənin bədəninin hərəkəti təqribən 25-30 yaşa qədər inkişafa doğru gedir. 25-30 yaşdan sonra isə bədən yenə də substansial hərəkət edir, amma bu dəfə üzüyuxarı deyil, aşağıya doğru hərəkət edir. Get-gedə bədənimiz zəifləyir, əldən düşür, yəni qocalırıq. Qeyd edək ki, maddi aləmdəki bütün hərəkətlər bitməklə üz-üzədir. Alimlər, fiziklər sübut edirlər ki, bu aləmdə daimi mühərrik yoxdur. Yəni bədənimizin deyilən substansial hərəkəti süquta doğru gedir və bu hal sonsuzadək davam etməyəcək. Dünya maddi olduğu üçün bu hərəkət digər maddi, fiziki hərəkətlərdə olduğu kimi, bir gün dayanacaq. Yəni bədənimizin 4-cü ölçüsü olmayacaq, o, öz canlılıq funksiyasını itirəcək. Bu deyilənlərdən sonra cismimizə dərindən diqqət yetirdikdə, onun substansial hərəkət trayektoriyasını izləyə bilərik. Bu substansial hərəkətin zamandan asılılıq trayektoriyası 0-dan başlayır, təqribən 25-ə (25 il) qədər artır və sonra azalmağa doğru hərəkət edir, nəhayət 0-a bərabər olur. Bu isə o deməkdir ki, həyat nə qədər davam etsə də, bir gün onun dayanacağının riyazi şəkildə asılılığı hesablanmışdır. Bu da hamının bir gön öləcəyi deməkdir.

Əlbəttə, hər kəs bir gün öləcəyini bilir. Amma məsələyə bu şəkildə yanaşmaq insana xüsusi təfəkkür tərzi bəxş edir, onu daha da dərindən düşünməyə vadar edir və bir gün əməllərinə görə Yaradan qarşısında cavab verəcəyi barəsində düşünməyə səsləyir...

***Rauf İMRANOĞLU***

# Cəmiyyət və Din

№ 08 (289) / AVQUST 2015-ci il


# Ən qədim göydələnlər şəhəri



Nyu-York, Dubay, Şanxay... Bu şəhərləri nə birləşdirir? Əlbəttə, bütün dünyada məşhur olan göydələnləri. Adamın başını gicəlləndirən hündür binalar bu gün istənilən müasir şəhərin simvoludur. Ancaq çox az adam bilir ki, ilk hündürmərtəbəli binalar Amerika və Avropada deyil, məhz Asiyada səhranın ortasında ucaldılmışdır. Yəmən Respublikasının Şibam şəhərini bu gün "ən qədim göydələnlər şəhəri" və ya "Səhra Manhetteni" adlandırırlar.

Şəhərin unikallığı ondan ibarətdir ki, ilk göydələnlər – hündürlüyü 30 metr olan binalar burada tikilmişdir. Binalar bir-birinə kip yapışdırılmış gil kərpiclərdən tikildiyinə görə kənardan qalaya bənzəyir. Bu gün belə, bu şəhərə yalnız bir darvazadan girmək mümkündür. Odur ki, Şibam bir vaxtlar yerli əhalini bədəvilərin hücumlarından qorumaq üçün salınmış qədim müdafiə konstruksiyasını xatırladır.

Binaların əksəriyyəti XVI əsrdə tikilmişdir və indiyədək öz funksiyasını qoruyub saxlamaqdadır. Nadir memarlıq quruluşuna sahib olan bu şəhər hazırda UNESCO-nun Mədəni İrs siyahısına daxil edilmişdir.

Burada 500-dən çox 6-11 mərtəbəli bina var və hər mərtəbə bir ailə üçün nəzərdə tutulmuşdur. Birinci mərtəbələrdə pəncərələr yoxdur. Bura adətən taxıl anbarı və malqara saxlamaq məqsədilə istifadə olunur. Orta mərtəbələrdə qonaq, yuxarı mərtəbələrdə isə yataq otağı və mətbəx yerləşir. Ən yuxarı mərtəbə isə kişilərin istirahətinə ayrılmışdır. Evlərin çoxu dəhlizlərlə bir-birinə bağlanmışdır. Keçmişdə bu dəhlizlərdən müharibə zamanı istifadə olunurdu.

Şəhərin əhalisi təxminən 7000 nəfərdən ibarətdir. İllər Şibamın zahiri görünüşünə çox az təsir edib. Şəhərdə sivilizasiyanın yeganə izləri peyk antenaları və kondisionerlərdir.

# "Musa möcüzəsi"?!

Hər il yüzlərlə turist və yerli sakin qeyri-adi təbiət hadisəsində iştirak etmək üçün Koreyanın cənubunda yerləşən Çindo adasına toplaşır. İldə bir dəfə üç gün və yalnız bir saat davam edən bu təbiət hadisəsi zamanı Çindo və Modo adaları arasındakı dəniz suyu aralanır və uzunluğu 2,9 kilometr olan qumlu cığır əmələ gəlir.

Bu hadisə ilk dəfə 1975-ci ildə geniş müzakirəyə çıxarılmış və həmin vaxt onu Musa peyğəmbərin əsası ilə Qırmızı dənizi aralaması rəvayəti ilə müqayisə etmişdilər. Ancaq Çindo adasında dənizin aralanması heç də hansısa möcüzədən qaynaqlanmır.

İki adanı birləşdirən nazik quru səthinin yaranmasının əsas səbəbi güclü qabarma-çəkilmə hadisəsidir. Qabarma və çəkilmələr bu ərazilər üçün adi haldır. Ancaq vaxtaşırı daha güclü qabarmalar baş verir . Bu, bir cərgə üzrə düzülən Günəş, Ay və Yerin öz cazibə qüvvələrini artırması ilə əlaqədardır. Bu cür güclü qabarmalara müvafiq olaraq güclü çəkilmələr də baş verir ki, bu da Çindo və Modo arasındakı sualtı cığırın üzə çıxmasına səbəb olur.

Bununla belə, bu qeyri-adi təbiət hadisəsi barədə əfsanə də yaranıb. Əfsanəyə görə, bir vaxtlar Çindo adası pələnglərlə dolu imiş. Bir müddət sonra onlar kəndə - sakinlərin məskunlaşdığı ərazilərə girməyə başlayırlar. Qorxuya düşən sakinlər Modo adasına köçərkən bir qadın unudularaq adada tənha qalır. Qadın pələnglərin ona hücum edəcəyindən və özünü qoruya bilməyəcəyindən qorxur. Odur ki, hər gün Modo adasına getməyə kömək etməsi üçün dəniz tanrısına dua edir. Və bir gün tanrı yuxuda qadına deyir ki, tezliklə dəniz üzərində göy qurşağı yaranacaq və o, digər adaya gedə biləcək. Qadın səhəri gün dənizə girir və onun suları aralanır. Beləliklə, o, rahatlıqla Modo adasına keçir.

Bu əfsanənin şərəfinə bu gün Çindo adasında pələng və dua edən qadın heykəli qoyulmuşdur.

*Güney*



## Yadigar söz

**Albert Eynşteyn**
*nəzəriyəçi fizik*

**Axmaqlara görə, insanlar irq, cins, milliyət, yaş, status, rəng, din, dil və başqa 8-dən çox kateqoriyaya bölünürlər. Halbuki, insanlar yalnız iki qisimdirlər: yaxşı insanlar və pis insanlar.**

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh namazı | Gün çıxır | Zöhr namazı | Əsr namazı | Axşam namazı | İşa |
|---|---|---|---|---|---|---|
| 01 Senytabr | 05:54 | 07:07 | 13:45 | 17:57 | 20:30 | 21:52 |
| 02 Senytabr | 05:55 | 07:08 | 13:45 | 17:56 | 20:28 | 21:50 |
| 03 Senytabr | 05:56 | 07:09 | 13:44 | 17:55 | 20:26 | 21:48 |
| 04 Senytabr | 05:57 | 07:10 | 13:44 | 17:54 | 20:25 | 21:46 |
| 05 Senytabr | 05:58 | 07:11 | 13:44 | 17:53 | 20:23 | 21:44 |
| 06 Senytabr | 06:00 | 07:12 | 13:43 | 17:52 | 20:22 | 21:42 |
| 07 Senytabr | 06:01 | 07:13 | 13:43 | 17:51 | 20:20 | 21:40 |
| 08 Senytabr | 06:02 | 07:14 | 13:43 | 17:49 | 20:18 | 21:38 |
| 09 Senytabr | 06:03 | 07:14 | 13:42 | 17:48 | 20:17 | 21:37 |
| 10 Senytabr | 06:04 | 07:15 | 13:42 | 17:47 | 20:15 | 21:35 |
| 11 Senytabr | 06:05 | 07:16 | 13:42 | 17:46 | 20:13 | 21:33 |
| 12 Senytabr | 06:06 | 07:17 | 13:41 | 17:45 | 20:12 | 21:31 |
| 13 Senytabr | 06:07 | 07:18 | 13:41 | 17:43 | 20:10 | 21:29 |
| 14 Senytabr | 06:09 | 07:19 | 13:41 | 17:42 | 20:08 | 21:27 |
| 15 Senytabr | 06:10 | 07:20 | 13:40 | 17:41 | 20:07 | 21:25 |
| 16 Senytabr | 06:11 | 07:21 | 13:40 | 17:40 | 20:05 | 21:23 |
| 17 Senytabr | 06:13 | 07:23 | 13:41 | 17:39 | 20:04 | 21:22 |
| 18 Senytabr | 06:13 | 07:23 | 13:39 | 17:37 | 20:01 | 21:20 |
| 19 Senytabr | 06:14 | 07:24 | 13:39 | 17:36 | 20:00 | 21:18 |
| 20 Senytabr | 06:15 | 07:25 | 13:39 | 17:35 | 19:58 | 21:16 |
| 21 Senytabr | 06:16 | 07:26 | 13:38 | 17:33 | 19:56 | 21:14 |
| 22 Senytabr | 06:17 | 07:27 | 13:38 | 17:32 | 19:55 | 21:12 |
| 23 Senytabr | 06:18 | 07:28 | 13:37 | 17:31 | 19:53 | 21:10 |
| 24 Senytabr | 06:19 | 07:29 | 13:37 | 17:29 | 19:51 | 21:09 |
| 25 Senytabr | 06:20 | 07:30 | 13:37 | 17:28 | 19:50 | 21:07 |
| 26 Senytabr | 06:21 | 07:31 | 13:36 | 17:27 | 19:48 | 21:05 |
| 27 Senytabr | 06:22 | 07:32 | 13:36 | 17:25 | 19:46 | 21:03 |
| 28 Senytabr | 06:23 | 07:33 | 13:36 | 17:24 | 19:45 | 21:02 |
| 29 Senytabr | 06:24 | 07:34 | 13:35 | 17:23 | 19:43 | 21:00 |
| 30 Senytabr | 06:25 | 07:35 | 13:35 | 17:21 | 19:41 | 20:58 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Vegetarian pəhrizi beyin qocalmasını ləngidir

Amerika tədqiqatçıları belə hesab edirlər ki, vegetarian pəhrizi beyin qocalmasının qarşısını almağa kömək edə bilər.

ABŞ-ın Raşa Universitetinin mütəxəssisləri bununla bağlı təcrübə keçiriblər. Təcrübədə 70-80 yaşda könüllülər iştirak ediblər. Beş il ərzində iştirakçıların intellektual göstəricilərindəki dəyişikliklər qeydə alınıb. Mütəxəssislərin mülahizələrinə görə, "yaşıl pəhriz" yaşlı adamların beynində olan pozulmaların qarşısını alıb. Belə ki, ABŞ-da "Alsqeymer" xəstəliyi (beyinlə bağlı xəstəlik) geniş yayılıb və adətən ölümlə nəticələnir. Buna görə də, dietoloqlar yaşlı insanlara ət, pendir, unlu və qızartma yeməklərdən az istifadə etməyi məsləhət görürlər. Həkimlər yaşlılara tərəvəz, paxlalılar, giləmeyvə və dənli bitkilərlə qıdalanmağı tövsiyə edirlər.

## NO COMMENT




Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:** Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
**Telefon:** 492 65 23; 437 31 15
**Tel/fax:** 497 15 39
492 58 29; 437 31 15
**Qaynar xətt:** qaynar_xett@scwra.gov.az
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, **"Azərbaycan" nəşriyyatında** ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 124

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894